Ana Kuprava-Qoqoladze, Giorgi Avtandilaşvili

# BIZIM GÜRCÜSTAN

# V SINIF

## Müəllimin kitabı

Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman
Nazirliyi tərəfindən 2018-ci ildə qriflənmişdir

“Klio” nəşriyyatı

Ana Kuprava-Qoqoladze, Giorgi Avtandilaşvili

BIZIM GÜRCÜSTAN
V sinif müəllimin kitabı

**Seriya redaktorları** Elene Medzmariaşvili

**Tərcümə edən** Emin Mahmudov
**Korrektor** Ceyran Ağayeva
**Kompüter yığıcısı** Sona Xudiyeva

© “Klio” nəşriyyatı, 2018
© Elene Medzmariaşvili, Ana Kuprava-Qoqoladze, Giorgi Avtandilaşvili,2018
Bütün hüquqlar qorunur

ISBN 978-99940-902-0-4

“Klio” nəşriyyatı MMC
Ağmaşenebeli pr. #181-2,
Tbilisi, 0112
tel.: (+995 32) 234 04 30
E-mail: book@klio.ge
www.klio.ge

## MÜNDƏRİCAT

1. Dərsliklər seriyasının konsepsiyası ........ 4

2. Dərsliyin strukturu ........ 5

3. Metodik tövsiyələr ........ 7

4. Dərsin planlaşdırılması ........ 12

5. V-VI sinif standartları ........ 17

6. Məzmunun Milli Tədris Planı ilə uyğunluğu ........ 21

7. Qiymətləndirmə ........ 23

8. Saat bölgüsü ........ 24

9. Qiymətləndirmə rubrikaları ........ 26

10. Dərs ssenariləri və əlavə məlumat ........ 31

11. Yekun tapşırıqlar –
Nə bilirəm və nə bacarıram qiymətləndirmə rubrikaları ........ 73

12. Əlavə alətlər ........ 82

13. Test tapşırıqları nümunələri ........ 84

14. Resurslar ........ 89

# 1.DƏRSLIKLƏR SERIYASININ KONSEPSIYASI

**Giriş**

"Bizim Gürcüstan" dərsliyi ibtidai V-VI siniflərdə, ictimai elmlərin standartı ilə müəyyənləşdirilmiş, eyni adlı fənn çərçivəsində, Gürcüstanın diyarlarının coğrafiyasının, tarixinin, etnoqrafik xüsusiyyətlərinin və müasir vəziyyətinin inteqrasiyalı tədrisini nəzərə tutur.

Şagirdin kitabının başlıca məqsədini təlim/tədris prosesində şagirddə öz ölkəsinin keçmişi və bu günü ilə bağlı marağını dərinləşdirmək, məlumat funksiyasını yerinə yetirmək, yəni şagirdə Gürcüstanın diyarlarının coğrafi, tarixi, etnoqrafik özünəməxsusluqları və müasir vəziyyəti barədə emal edilmiş, sahmanlanmış, ən yeni elmi nailiyyətlərə və tədqiqatlara əsaslanmış bilik vermək təşkil edir. Dərslik beynəlxalq fənlərarası standartları yerinə yetirir. O, diyarın coğrafiyasını tarixlə, mədəniyyətlə və etnoqrafiya ilə əlaqələndirəcək, şagirdin ictimai problemlərinin həllində öz töhfəsini vermək motivasiyasını yaradacaq, onun köməyi ilə şagird vətənsevər, yüksək ictimai təfəkkürə malik vətəndaş kimi formalaşacaqdır.

**Məqsədlər**

"Bizim Gürcüstan" dərsliyinin məqsədi şagirdə:

- Öz ölkəsini müxtəlif tərəflərdən göstərsin və təqdim eləsin;
- Onun keçmişi və bu günü ilə bağlı onda maraq oyatsın;
- Gürcüstanın rəngarəngliyinin onun sərvəti olduğunu izah etsln;
- Öz regionuna, ümumilikdə bütövlükdə ölkəsinə qarşı qayğıkeş münasibət formalaşdırsın;
- Cəmiyyətin və dövlətin üzvü kimi özünüdərkinə, mülki təfəkkürün inkişafına köməklik göstərsin;
- Vətəndaş cəmiyyətində yaşamaq üçün lazımi bacarıq və qabiliyyətləri inkişaf etdirsin;
- Həyat və sağlamlıq üçün təhlükəli vəziyyəti qiymətləndirmək və müvafiq davranış bacarığını inkişaf etdirsin;
- Şagirddə ictimai elmlərin öyrənilməsi üçün zəruri əsas bacarıq və qabiliyyətləri formalaşdırsın;
- Mənbələr, xəritələr, illüstrasiyalar, cədvəllər və diaqramlar üzərində işləmək bacarıq və qabiliyyətlərini formalaşdırsın;
- Tərbiyə edici funksiyanı yerinə yetirsin, yəni Gürcüstan regionlarının coğrafi, tarixi, etnoqrafik xüsusiyyətləri və müasir vəziyyətin öyrənilməsi təlim-tərbiyə vəzifələrini həyata keçirsin;
- Təlim/Tədris prosesində müəllimin peşəkar inkişafına dəstək göstərmək;
- Təfəkkür əməliyyatlarını mənimsəmək, tədqiqat, həyati bacarıq yaradıcı təfəkkür, özünüidarə kimi əsas bacarıq və qabiliyyətləri inkişaf etdirsin.

**Dərslik aşağıda verilmiş funksiyaların daşıyır:**

**1. Tədris prosesi ilə bağlı funksiya:**

- Bilik vermək;
- Bacarıq və qabiliyyətləri formalaşdırmaq və inkişaf etdirmək;
- Biliyin möhkəmləndirilməsi;
- Biliyin qiymətləndirilməsi.

**2. Gündəlik və peşəkar həyatla əlaqəli funksiya**

- Qazanılmış biliyin həyatda tətbiqi və inteqrasiyası;
- Referensiya (arayış kitabçası kimi istifadəsi mümkündür);
- Sosial-mədəni tərbiyə.

**3. Müəllimə aid edilmiş funksiya**

- Elmi və ümumi məlumat vermək;
- Peşəkarlığın yüksəldilməsi;
- Tədris prosesində və dərs keçən zaman köməkçi funksiya.

# 2. DƏRSLİYİN STRUKTURU

V sinif “Bizim Gürcüstan” dərsliyi, giriş, beş hissədən və 35 fəsildən ibarətdir ki, bu da 42 dərs üçün hesablanmışdır. Tədris proqramına görə, cari fənnə həftədə iki saat, ildə 70 saat ayrılır. Bir fəsil bir və ya iki dərsə uyğun gəlir, məktəb dərsliyində bir fəsildə verilmiş material “Bizim Gürcüstan” dərsliyinin bir və ya iki dərsi üçün nəzərdə tutulmuşdur. Dərslikdə yekun dərs “Nə bilirəm və nə bacarıram” var, hansı ki, bütövlükdə tədrisin interaktiv metodunun istifadəsini nəzərdə tutur.

Tədris proqramının 70 saatının qalan saatları ehtiyat saatı kimi götürülür, hansını ki, müəllim giriş, ümumiləşdirmə və yekun dərslərdə, məktəb mühazirələrində, seminarlarda, təcrübə, ekskursiya, teatr tamaşasını həyata keçirmək və s. üçün istifadə edə bilər.

Hər bir fəsil üç hissədən ibarətdir: 1. Açar sual; 2. Mətn; 3. İş hissəsi: suallar və tapşırıqlar.

**1. Açar sual.** Burada əsas sual verilmişdir, hansı ki, şagirdin diqqətinin cəmlənməsinə və fəsildə verilmiş problem və məsələ ilə maraqlanmasına kömək göstərir.

**2. Mətn.** Mətnin məqsədi: “açar suala ” cavabın verilməsindən ibarətdir. Mətnin əsas tərkib hissələrinə aiddir: a) Müəllif mətni; b) Mənbələr (onlara əlavə edilən suallar və məşğələlər); c) əyani vasitələr: illüstrasiyalar, xəritələr, cədvəllər, sxemlər, diaqramlar və s (onlara əlavə edilmiş suallar və məşğələlər).

Mənbələri bu cür qruplaşdıra bilərik: 1. Tematik dərinləşdirilmiş hissə. Orada müəllif mətnində qısaca verilmiş məsələlər önə sürülmüşdür; 2. Təzadlı hissə. Orada elə məsələlər və hadisələr var ki, müəllifin mətnində onlara diqqət verilmir; 3. Bioqrafi və sosial-bioqrafi. Onların təyinatı şagirdin diqqətini şəxsiyyətə qarşı elə yönəltməkdən ibarətdir ki, tarixin təcəssüm etdirmə prinsipi önə çıxmasın və aşağıdakı məqsədə nail olunsun: tarixə, coğrafiyaya, şəxsiyyətə, insanın məişətinə maraq.

Mənbələr, fotolar, şəkillər, xəritələr və s., müəllifin mətnində verilmiş informasiyanı “iki dəfə artırır” və mətnin daha yaxşı qavranmasına kömək edir. Yuxarıda verilmiş əyani vasitələrlə, mətnin vizual “tərcüməsi” yolu ilə mətni təkrarlamaq və mətndə ixtisar edilmiş məsələləri yerinə qoymaq və ya tamam fərqli vizual forma ilə əlavə etmək mümkündür.

Dərslikdə verilmiş mənbələri, eləcə də mənbə şəklində verilmiş əyani vasitələri, müstəqil işin bir hissəsi kimi müzakirə etməliyik, hansının ki, “həll edilməsini”, “oxunması” və tətbiqini müəllim şagirdə öyrətməlidir. Müəllimin kitabında mənbələr və əyani vasitələr üzərində işləməklə bağlı bilavasitə tövsiyələr və məsləhətlər verilmişdir.

Dərsin tərkib hissələrindən biri “Daha çox eşit” rubrikasıdır. Rubrikanın məqsədi dərsin mövzusunu dərinləşdirmək təşkil edir. O, əsas mətndən ayrılmışdır və dörd növü var: maraqlı informasiya, tarixin vərəqləri, tarixi şəxsiyyətlər, miflər və əfsanələr və loqosunun rənginə görə fərqlənir. Ona həmçinin suallar və tapşırıqlar əlavə edilmişdir və əsas mətnin hissəsini təşkil eləyir.

Dərsə lüğət əlavə olunur və orada mətndə verilmiş sözün izahı verilir.

Hər hissənin sonunda yekun dərs “Nə bilirəm və nə bacararam” verilir, oradakı tapşırıqlar nəinki təkcə fəsil üzrə qazanılmış nəzəri biliyi, o cümlədən şagirdin praktiki bacarıq və qabiliyyətlərini yekunlaşdırır cəmləşdirir və dərinləşdirir. Yekun dərs başlığı da bunu vurğulayır.

Mətnin məzmunun seçilməsi və tərtibatını müəyyənləşdirən meyar **aparıcı mövzular** idi. Aparıcı mövzular elə meyarları nəzərdə tutur, hansılar ki, zaman və məkan çərçivəsini keçir və coğrafi, tarixi, etnoqrafik və mülki təhsilin əsas tendensiyalarını və proseslərini əhatə edir. Məhz bu aparıcı mövzular vasitəsilə məsələnin və problemin qoyulması baş verir. Onlar bir növ dayaq, əsası təşkil edirlər, hansının ki, üzərində mətn qurulur.

Belə aparıcı mövzulara daxildir: **Gürcüstanın regionları: Kartli, Şərqi Gürcüstanın dağlıq hissəsi, Sameqrelo, Acarıstan, Kaxeti, Quriya, Svaneti, Raca-Leçxumi, Abxaziya, Samsxe-Cavaxeti. Eləcə də Gürcüstanın paytaxtı – Tbilisi və dövlət –Bizim Gürcüstan.**

Beşinci sinif dərsliyinə beş region daxil edilmişdir: Kartli, İmereti, Sameqrelo, Svaneti və Acarıstan. Dərslik giriş hissə ilə başlayır, hansında ki, öyrəniləcək məsələlər şagirdə zaman və məkanda özünü təyinetmə imkanını verir.

.Aparıcı mövzular tədqiq ediləcək məsələərin və sahələrin ayrılmasını asanlaşdırır və eyni zamanda yekcins çərçivə yaradır, hansı ki, materialın çoxluğuna nəzarət edir və onu məhdudlaşdırır. Aparıcı mövzular fənlərin inteqrasiyası imkanını verir.

Mətnin dili sadə, üslubu – nəqledici-təsviredicidir, əcnəbi sözlərlə yüklənməmişdir.

**3. İş hissəsi: suallar və tapşırıqlar.** Dərsliyin bu hissəsinin məqsədi, fəslin öyrənilməsi nəticəsində qazanılmış biliyin, qabiliyyət və bacarıqların dərinləşdirilməsindən ibarətdir. Onlar tədris prosesinə yönəlmişdir və işləmə üzrə rəngarəngliyi tələb edir. Məsələn, tapşırıqlar bu cür tipdədir: göstəricilərin toplanması, təşkili, təhlili və interpretasiyası; xəritələr, cədvəllər və diaqramların tərtibi, oxunması və məlumatın tətbiqi; zaman və məkanda istiqamətlənmə; illüstrasiyalar və fotoların "oxunması" və onlardan məlumatın alınması; sorğuların keçirilməsi; kiçik ölçülü inşanın yazılması; diskussiya və dialoqun yönəldilməsi; müxtəlif "handout" (paylanma materialı) üzərində iş; rolların paylaşdırılması ilə oyunlar (səhnələşdirmə); rəsm, rəsmxətt və s.

İşçi hissə qrup və fərdi iş üçün nəzərdə tutulub.

Dərsliyin mətni və işçi hissənin bir-biri ilə uyğunluğunun böyük əhəmiyyəti var. İşçi hissədə, əsasən sual olmur, ona cavab mətndə verilmir. İşçi hissədə elə suallar var ki, onu ancaq biliyə əsaslanaraq, cavablandırmaq olar. Təsviredici xarakterli suallar da var, bəziləri isə şagirdin fantaziyasına uyğunlaşdırılmışdır.

İşçi hissə bacarıq və qabiliyyətlərin formalaşması və inkişafına kömək edir.

Proporsiyanın qorunmasının böyük əhəmiyyəti var. Dərslikdə proporsiya var: a) Məlumat, məşğələlər və praktiki tapşırıqlar arasında; b) Məlumat və qabiliyyət və bacarıqlar arasında.

**4.Tədris materialının paylaşdırılması, dərsliyin Milli Tədris Planı ilə uyğunluğu.**

Dərsliyin məzmunu tədris proqramına əsaslanaraq və yeni dövlət təhsil standartının tələblərini nəzərə alaraq, işlənib hazırlandı. Fəsillərin başlıqları proqrama daxil olmuş tədris mövzularına cavab verir. Fənlərin inteqrasiyası məqsədilə, dərslik fərqli fənləri əlaqələndirən mövzuları ehtiva edir.

Dərsliyin bütün əsas tərkib hissələri materialın mənimsənməsini və maraqlı, fərqli tipdə dərslərin keçirilməsini dəstəkləyir. Buna görə də müəllim çalışmalıdır ki, iş prosesində – dərsdə onların inteqrasiyasına nail olsun. Arzuolunandır ki, müəllim dərsliyin tərkib hissələri emal etsin və dərsdə tətbiq eləsin. Bu işdə pedaqoqa müəllimin kitabı kömək edəcək. Dərsliyin bütün tərkib hissələri şagirdə yönəlmişdir və şagirdin yaş və psixoloji xüsusiyyətlərini nəzərə alır.

**Müəllimin kitabının məqsədi:**

1. Müəllimə hər bir dərsi hazırlamağa və keçirməyə kömək göstərsin;
2. Əlavə məlumat versin;
3. Müəllimin peşəkarlığının yüksəldilməsini dəstəkləsin;
5. Tədris materialının təqdimat fazasının izahatı, müəllim dərsə necə hazırlanmalıdır?

Hər dərsə müəllim əsaslı şəkildə hazırlanmalıdır, xüsusilə:

- Dərsi planlaşdırsın, ssenarisini tərtib eləsin,
- Bu dərs üçün hansı resursların lazım olduğunu və
- Hər bir aktivliyi zaman çərçivəsində necə bölüşdürəcəyini müəyyənləşdirsin.

# 3. METODİK TÖVSİYƏLƏR

**Təlim/Tədris üzrə interaktiv metodların tətbiqi**

Müasir dünya təhsil siyasətinin başlıca istiqamətini şagirdlərə yönəlmiş təhsil təşkil edir. Müvafiq olaraq, arzuolunandır ki, tədris metodikası da şagirdə yönəlmiş olsun, yəni interaktiv olsun. İnteraktiv metodika isə şagirdlərə yönəlmişdir, burada şagird tədris prosesinin mərkəzi fiqurudur və bütün təhsil əməliyyatlarında aktiv iştirak edir – bunun üçün yeni bilik axtarır və ondan istifadə edir.

Bizim təklif etdiyimiz nümunə dərslər, əsasən, aktiv və interaktiv metodlardan istifadə edilməklə tərtib olunmuşdur. Aşağıda müəllimlərə metodların detallı təsvirini təklif edirik ki, onlardan effektiv surətdə istifadə edə bilsinlər.

**I. Əqli hücum (Beyin həmləsi)**

"Əqli hücum" interaktiv metodlardan biridir. Əsas məqsədi ideyanın sərbəst ifadəsi yolu ilə problemi siniflə birgə həll etməkdən ibarətdir.

"Əqli hücum" yaradıcı təfəkkürün inkişafına yardım edir. Şagirdlər digərlərini dinləməyi öyrənirlər. “Əqli yürüş” müstəqil keçirilə bilər və ya başqa tapşırığın bir hissəsini təşkil edə bilər.

Müəllim problemi əvvəlcədən seçir və sual şəklində onu aydın formalaşdırır. Bundan sonra "Əqli hücum" birinci mərhələsi başlayır, bu, ideyalar bankının yaradılması (yığılması) mərhələsi də adlanır. Bu zaman aşağıdakı qaydalara əməl edilməlidir:

1. İştirakçılar mülahizələrini söyləyən zaman mülahizələrin tənqidi, mübahisə və ya qiymətləndirmə yolverilməzdir;
2. İştirakçılar ideyalarını könüllü şəkildə səsləndirirlər, müəllimin istəyinə görə yox;
3. Hər bir şagird bir və ya bir neçə mülahizə söyləyə bilər. Mülahizələr orijinal da ola bilər, başqasının ideyasının təkrarı da;
4. Bütün ideyalar (qəbul edilməz ideyalar belə) lövhədə əks olunmalıdır (yazılmalıdır);
5. İdeyaların söylənməsi tezliyi azaldıqda, müəllim şagirdlərə bir daha fikirləşmək imkanı verir;
6. Vaxt əvvəlcədən də müəyyənləşdirilə bilər, yaxud da müəllim zəruri halda ideya təşəbbüsünü prosesini dayandıra bilər.

İkinci mərhələ, yəni ideyaların qiymətləndirilməsi:

1. İrəli sürülmüş mülahizələrin xülasəsi:
2. Əgər bir neçə mülahizə oxşardırsa onların ümumiləşdirilməsi, birləşdirməsi həyata keçirilir;
3. Şagirdlərdən xahiş edilir ki, ümumiləşdirilmiş ideyaların içindən ən dəyərli hesab etdikləri 2-3 ideya seçsinlər; onları əhəmiyyətinə görə sıralasınlar (ən mühüm ideya birinci yerdə yazılır və s.).
4. Sonda qoyulmuş problemin həlli üçün daha əhəmiyyətli ideyalar seçilir.

"Əqli hücumdan" istifadə nəinki yaradıcı təfəkkürün inkişafına, eləcə də fərqli düşüncəyə dözümlülüyün və hörmətin formalaşmasına zəmin yaradır, şagirdlərdə əməkdaşlıq və münasibət qurmaq qabiliyyət və bacarıqlarını inkişaf etdirir.

**II. Sinif diskussiyası**

Diskussiya maariflənmə fəaliyyətinin əsas formalarından biridir, hansı ki, şagirdlərin təşəbbüsünə stimul verir, onlarda tənqidi düşüncəni inkişaf etdirir.

Diskussiya zamanı baş verir:

– iştirakçılar arasında məlumat mübadiləsi, eyni bir məsələ ilə bağlı fərqli yanaşmaların axtarılması, müxtəlif nöqteyi-nəzərlərin (çox zaman bir-birini təkzib edən) mövcudluğu, ümumi fikrin və ya qərarın qəbul edilməsi üçün qrup razılaşmasının əldə edilməsi.

Diskussiya metodu il tədris, ənənəvi metoddan fərqli olaraq, imkan yaradır ki, görək, hər bir müddəanın çoxlu mütərəddid tərəfi vardır və bir çox vasitə ilə nəticə çıxarmaq mümkündür.

Sinifdə açıq diskussiya keçirmək üçün, qarşılıqlı hörmət və etimad mühiti yaradılmalıdır. "Təhlükəsiz" mühitinin yaradılması isə müəllim tərəfindən öncədən işin görülməsini nəzərdə tutur, hansının ki, məqsədi sinifdə diskussiya davranışları və münasibət normalarını formalaşdırmaqdan ibarətdir. Bu ibtidai siniflərdə daha effektivdir, çünki məhz o dövrdə uşaqlarda davranış standartları formalaşır.

Diskussiya qaydalarının öyrənilməsi və bu metodun tez-tez istifadə edilməsi aşağıda sadalanmış bəzi bacarıq və qabiliyyətlərin formalaşmasına şərait yaradır

– Başqasını diqqətli dinləməyi, öz fikrini formalaşdırmaq və onu əsaslandırmaq, mühakimə, tənqidi analiz və başqalarının fikirlərini qiymətləndirmək.

Yekun olaraq, fərqli olsa belə, başqasının fikrinə hörmətlə yanaşmaq və güzəştli münasibət formalaşır ki, bu da demokratik cəmiyyətin vətəndaşı üçün mühüm amildir.

Diskussiya keçirmək üçün lazımdır: Sual vermək, problemi təqdim etmək və ya konkret vəziyyətin təsviri; diskussiya qaydalarına riayət etmək, şagirdlərin həvəsləndirilməsi, dəstəklənməsi.

Bizim dərslikdə demək olar ki, bütün dərslər sinif diskussiyasını nəzərdə tutur,

**"Dairəvi masa"** – şagirdlərin kiçik qrupu (4-5 nəfər) bir-biri ilə və siniflə fikir mübadiləsi aparır.

**"Forum"** – bütün sinif bərabər imkan daxilində fikir və ideya mübadiləsi həyata keçirir.

**"Debatlar"** – əvvəlcədən planlaşdırılmış çıxışlar əsasında qurulur. Nümayəndələr qruplar üzrə seçilməlidir. Hər bir qrupun iştirakçısı növbə ilə mübahisədə iştirak edir.

Diskussiyadan sonra müəllim əldə edilmiş nəticələri bir daha ümumiləşdirir və şagirdlərlə bərabər təkrarlayır. Ən yaxşı halda, nəticələri iştirakçıların özü müəyyən etməlidir.

Sinif diskussiyası müəllimlə sinif və yaxud şagirdlər qrupu arasında təşkil edilə bilər.

**Sinif diskussiyasının təşkili eyni zamanda bir neçə məqsədə xidmət edir:**

- Şagirdlərin fəallaşmasına
- Şagirdlərdə tənqidi təfəkkürün formalaşmasına
- Tədris materialının mənimsənməsinin dəstəklənməsinə
- Şagirdlərdə kommunikasiya bacarığının inkişaf etdirilməsinə
- Diskussiya həm yeni, həm də keçilmiş materiala əsaslana bilər.
- Arzu olunandır ki, diskussiyanı şagirdin və ya müəllimin təklifi ilə təqdimatdan sonra tətbiq edək.
- Diskussiyanın düzgün idarə edilməsində sinifdə masaların düzülüşü də əhəmiyyət kəsb edir. Masaların dairəvi və ya dördkünc formada düzülüşü arzu ediləndir.

**Diskussiyanın idarə edən zaman aşağıdakıları nəzərə almalıyıq:**

- Diskussiya konkret məqsədə və sahəyə fokuslanmaldır – müəllim diskussiyanın məqsədlərini aydın şəkildə izah etməli və lövhədə yazmalıdır.
- Diskussiya qaydalarını işləyib hazırlamalıyıq (bir-birini dinləmə, vaxtın bölüşdürülməsi, reqlament).
- Zaman-zaman şagirdlərin mülahizə və ideyalarına reaksiya verməliyik, bu şagirdə öz dediklərini düşünməyə və dərk etməyə kömək edəcək.
- Uğurlu diskussiya üçün şagirdlərin bir-birlərinin fikirlərinə hörmət etmələri mühüm əhəmiyyət kəsb edir.
- Diskussiyanın sonunda bir növ yekunlaşdırma, analiz, məsələlərin sadalanması (hansı ki, diskussiya zamanı irəli sürülmüşdür),prosesin qiymətləndiriməsi (nə düzəldi, necə düzəldi) həyata keçirilməlidir. Sonradan nəyə düzəliş edilməlidir məsələsini vurğulamaq da vacibdir.

Diskussiya şagirdlərdə mühakimə, tənqidi təfəkkür və problemi həll etmək bacarığının inkişafına dəstək verir. Şagirdlərdə fikirlərini şifahi, rabitəli ifadə etmək və qərar qəbuletmə, mübahisəli məsələləri həll etmək və alternativ qərarlar axtarmaq kimi bacarıq və qabiliyyətləri çalışdırır. Diskussiya zamanı şagirdlərdən arqumentli mülahizə, qərar qəbuletmə, diskussiya qaydalarına riayət eləmək tələb olunur. Diskussiyanın əsas məqsədi, qrupda müzakirə ediləcək məsələ haqqında biliyini nümayiş etdirmək və problemin həllində bu biliyin tətbiqinə dəstək göstərməkdir.

Diskussiya qeyri-müəyyən sayda cavablar meydana gətirir və bir mülahizəni tələb etmir. Əgər verilmiş sualın ardınca başqa sual gəlirsə, nə zaman ki, şagird fikrində onun üçün maraqlı mövzunu fırlayırsa və cavab tapmağa çalışırsa, hər şeyi bilmək həvəsi müsbət intellektual qüvvə kimi formalaşır. Müşahidə zamanı bu metodun tətbiqi üzrə nöqsanlar da müəyyənləşdirildi. Xüsusilə, qaydalara riayət etməkdə, bütün fikirləri əsaslı şəkildə dinləməkdə çətinlik çəkirlər ki, bu da səs-küy yaradır və bütün uşaqlara dərs prosesinə fəal qoşulmaq imkanı verilmir.

**III. Süjetli-rollu oyunlar**

Oyun insanın, xüsusilə də uşaqların davranışının əsas aparıcı formalarından biridir. Tədris məqsədi ilə oyun isə mümkün reallığın qrup şəklində tədqiqat vasitəsi və bu yolla sosial təcrübəni qazanmaq deməkdir.

Alman psixoloqu Büller hesab edirdi ki, oyun fəaliyyətdir və onun həyata keçirilməsinin əsasında funksional zövq almaq dayanır. Yuxarıda deyilənlərdən irəli gələrək, izah edə bilərik ki, oyun mümkün həqiqətin qrup və dialoq şəklində tədqiqat metodudur. Oyun aktivliyinin əsasında həqiqətən də, müxtəlif növ həzzlər dayanıb, xüsusilə :

1. Həmkarla bilavasitə əlaqə zövqü;
2. Oyun situasiyalarının nəticələrinin sürətli aydınlaşdırılması həzzi;
3. Yarışdan əldə edilmiş məmnuniyyət həzzi.
4. Özünün və imkanlarının nümayişi həzzi;
5. Rola "girmə" həzzi və s.

Süjetli oyun – bu dərs zamanı oynanılmış kiçik bir tamaşadır, hansının ki, məqsədi uşaqlar üçün naməlum və seçilmiş hadisələrin onların oynanılması yolu canlandırılmasıdır.

Müəllim sinifdə müzakirə ediləcək (öyrənilәsi) mövzunu seçir və süjet qurur. Sonra uşaqlarla birlikdə bu rolları bölüşdürür və uşaq tamaşasının necə həyata keçirilməsi barədə mühakimə yürüdür.

Tamaşa zamanı ola bilər ki, müəllim uşaqları saxlasın və onlara suallar versin (məs., tamaşanın daha da yaxşılaşdırılması məqsədi ilə). Oyun başa çatdıqdan sonra bütün sinif tərəfindən onun müzakirəsi başlanılır.

Bu metod uşağa imkan verir ki, onun üçün tanış olmayan hadisələri daha yaxşı dərk etsin, öz hisslərini və fikirlərini daha aydın ifadə etsin, özünü qrup üzvü kimi hiss etsin, digər uşaqlarla əməkdaşlıq etsin (yəni iştirak etsin) və sair. Bununla yanaşı, oyun vasitəsilə uşaqların sosiallaşmasına (cəmiyyətdə mövcud sosial sınaqların mənimsənilməsi və qəbul edilməsi ) da nail olunacaq.

**1.** Simulyasiya oyunlarının tətbiqi tədris prosesini şagird üçün əyləncəli və maraqlı edir.
**2.** Simulyasiya real vəziyyətə bənzər, vəziyyətin yaradılmasını nəzərdə tutur.
**3.** Simulyasiya mövcud olanın və ya mövcud olacağın modelidir. Bir sözlə, simulyasiya reallığın oynanılmasıdır.
**4.** Simulyasiyalar insanların iştirakı və ya kompüter vasitəsilə oynanıla bilər.
**5.** İnsanın iştirakı ilə keçirilən simulyasiya rollu oyun adlanır.
**6.** Yaxşı olardı ki, bu strategiyanı mürəkkəb mövzuların işlənməsi zamanı tətbiq edək.
**7.** Oyundan fərqli olaraq, simulyasiyanın qalibə ehtiyacı yoxdur.
**8.** Rollu oyunlar 3 əsas hissədən ibarətdir: situasiya, rollu oyun, sinif diskussiyası.

Rollu oyunlar dəstək verir:

- ➢ Onun emosional səviyyədə mənimsənməsində məsələnin dərinliyinə varmağa (rollu oyun vasitəsilə şagird başqa bir fərdə çevrilir, rolunu ifa etdiyi həmin insanın xasiyyəti və motivasiyasına asanlıqla nail olur )
- ➢ Məsələnin uzunmüddətli yadda saxlanmasına, məlumatın qiymətləndirilməsi və təşkilinə, tədris prosesinə maksimal surətdə qoşulmaya və motivasiyanın şagirdin kommunikasiya səviyyəsinin yüksəldilməsinə, analitik və praktiki təfəkkürün inkişafını və empatiyanın (şərik olma) inkişafına.

**9.** Simulyasiyanın təşkili üçün müəllim gərək:

- ➢ Şagirdləri improvizasiya üçün həvəsləndirsin, şagirdlərə ssenari və ya tamaşanın hansısa sadə eskizini hazırlatsın, rolları bölüşdürsün, tamaşanın qoyulması məğzini və məqsədini, bacardığı qədər, formalaşdırsın (yaxşı olardı ki, yazılı şəkildə), şagirdlərə sadə dekorasiyalar, əl işi resursları, sadə kostyumlar hazırlatsın.

**10.** Müsbət effektdən başqa, rollu oyunların keçirilməsi zamanı meydana çıxan bir neçə çətinlik də nəzərə alınmalıdır:

- ➢ Rollu oyunlar şagird və müəllim tərəfindən yaxşı inkişaf etmiş təxəyyül qabiliyyəti tələb edir!
- ➢ Rollu oyunlar zamanı müəllimlə şagird arasında aşırı qeyri-formal münasibət formalaşa bilər ki, bu da irəlidə dərsin keçirilməsi prosesinə mane olacaqdır.

**11.** Rollu oyunlar başa çatdıqdan sonrakı mərhələdə həyata keçirilmiş işin müzakirəsinin və qiymətləndirilməsinin keçirilməsi arzu ediləndir. Bunun üçün isə sinif diskussiyasının tətbiqi məqsədəuyğundur.

**Diskussiya** interaktiv tədrisin ən geniş yayılmış metodlarından biridir. Sinif diskussiyasının tətbiqi şagirdlərin tədris prosesinə qoşulmasını yüksəldir, onların sosial və şəxsiyyətlərarası bacarıqlarının inkişafına dəstək verir.

Əməkdaşlıq formasında tədris metodlarından Ciqsou metodu tətbiq edilir. Bu metod xüsusən iri həcmli mövzuların öyrənilməsi zaman effektivdir. Bu metod, bütün yaş qruplarında uğurla işləyir. Onlar əsas qrupların daxilində ayrı-ayrı mövzuları işləyə bilərlər, ekspertlər qrupunda mövzunun hissələrinin dərinləşdirilməsi baş verir, mövzunun hissələri yenidən əsas qruplara verilir və hər bir şagirdin fərdi biliyi yoxlanılır. Bu metodun tətbiqi ilə aydın olur ki, şagirdlərdə həm fərdi, həm də qrup qarşısında məsuliyyət hissi, eləcə də kommunikasiya bacarıqları inkişaf edir. Bunu müşahidə nəticəsində, təsbit olunur ki, nisbətən zəif şagirdlər mövzunun müəyyən hissəsini müstəqil işləməkdə çətinlik çəkirlər və belə əngəlli mühit ola bilər ki, onların fərdi nailiyyətini qiymətləndirmək üçün asan gəlmədi və metodu tətbiq etmək üçün böyük zaman tələb olunur.

**Təqdimat** tədris prosesinin ayrılmaz hissəsidir. Fənn standartının tələblərindən irəli gələrək, şagirdlər həmişə sinif qarşısında qısamüddətli və ya uzunmüddətli tədqiqatların nəticələrini təqdim edirlər, hansı ki, yalnız bir fənn çərçivəsində baş vermir. Təqdimat bacarığına malik olmaq nəinki təkcə məktəbdə yüksək qiymət almağın, eləcə də şəxsi imkanların üzə çıxarılmasının ilkin şərtidir. Bu metod ibtidai və baza pilləsinin şagirdləri üçün maraqlı, əyləncəli və tələbkardır, lakin müəyyənləşir ki, şagirdlər qeyri-verbal kommunikasiya elementlərini nəzərə almaqda, zaman limitinə əməl etməkdə, mövzu üzrə maraqlı materiallar tətbiq etməkdə çətinlik çəkir.

**Kiçik mühazirə** tez-tez tətbiq edilən metoddur. Bu qısa zaman kəsiyində şagirdlərə zəruri məlumat ötürmək vasitəsidir. Lakin bu metod şagirdlərə yalnız bilik verir (hansı ki, vacibdir) və bacarıqların inkişafına elə də imkan yaratmır. Bu zaman auditoriyanın diqqətini üzərində saxlamaq çox çətindir və mühazirə prosesində qiymətləndirmə mürəkkəb xarakter daşıyır.

Yuxarıda sadalanmış metodlar ümumi bacarıqların inkişafına təkan verir. Xüsusilə də: məlumatın axtarılması və təşkili, yaradıcı təfəkkür, kommunikasiya, tədqiqat, öyrənmə bacarığı, əməkdaşlıq. Lakin Milli Tədris Planının məqsədlərindən irəli gələrək, xüsusi bacarıqların inkişaf etdirilməsi də vacibdir. Buna isə diskussiya və debatlar dəstək göstərir.

**Debatlar** ən yaxşı aktivliklərdən biridir, hansı ki, tədris prosesini daha əyləncəli və yaradıcı edir. O tənqidi təfəkkürlə təqdimatın ən mühüm bacarıqların təkmilləşməsi və inkişafına təkan verir. Həmçinin koqnitiv və idraki bacarıqları da sadalaya bilərik, hansıları ki, şagirdlər debatlar vasitəsilə inkişaf etdirirlər: abstrakt təfəkkür, vətəndaşlıq hissi, etiketlə tanışlıq və ona əməl etmək, özünütəşkil, özünəgüvənmə, ümumi danışıq mədəniyyəti, tədqiqat, komanda şəklində işləmək. Və bu tam siyahı deyildir. Bizim fikrimizcə, tarix müəllimi debatlardan tez-tez istifadə edə bilər, çünki tarix dərsində onlar xüsusi əhəmiyyət daşıyırlar. Yuxarıda sadalanmış  bacarıq və qabiliyyətlərin inkişafı ilə yanaşı, tarixin dərkinin ən yaxşı yollarından biridir. O tarix müəlliminə fənn standartı ilə nəzərdə tutulmuş məqsədlərə çatmağa kömək edir, şagirdin motivasiyasını yüksəldir, tədris prosesini daha maraqlı edir. Debatlar tarixin tədrisinin müasir yanaşmasına uyğundur, hansı ki, tarixlərin və faktlarına yadda saxlanılmasına deyil, tarixi proseslərin təhlilinə və analizinə, tarixi şəxsiyyətlərin və hadisələrin müxtəlif rakurslardan baxılmasına yönəlibdir.

**Debatların** keçirilməsinin birinci mərhələsində arzu ediləndir ki, debatda iştirak etmək hüququ əsasən fəal şagirdlərin əlində olsun. Buna görə də "üç kart" strategiyasından istifadə edin. Bu strategiyaya görə,  müəllim hər şagirdə debat başlamazdan qabaq üç kar verir, harada ki, "sual ya şərh" sözləri yazılıbdır. Əgər şagirdin diskussiyaya qoşulmaq istəyi olsa, kartı qaldırır, sual verdikdən və ya şərh etdikdən sonra isə kartı kənara qoyur və çevirir. Onun diskussiyaya üç dəfə qoşulmaq imkanı olacaqdır. Belə ki, bu strategiya şagirdi məcbur edir ki, yaxşı fikirləşsin və diskussiyaya sonra qatılsın. Bu xüsusilə aktiv şagirdlərə şamil olunur. Onlar çalışırlar ki, fikirləşsinlər, edəcəkləri şərhə görə, "kartı" itirməyə dəyər, ya yox, bəlkə onu daha əhəmiyyətli və dəyərli şərh üçün saxlasınlar. Bütün iştirakçılar kartlarını istifadə edənə qədər,  hər üç kartı istifadə etmiş  şagird diskussiyadan ayrılır.

Müzakirə etdiyimiz metodlar əhəmiyyətli dərəcədə faydalıdır və həm ümumi, həm də xüsusi bacarıq və qabiliyyətləri inkişaf etdirir. Lakin müşahidə nəticəsində məlum oldu ki, şifahi nitqlə bağlı bu metodlar hər bir şagirdin dərs prosesinə eyni fəallıqla qoşulmaq imkanını vermir. Ola bilər ki, şagird mülahizəsini söyləyə bilmədi, bəzisi özünü ələ aldı, bəzisinə isə fikrini istədiyimi kimi söyləməyə vaxt qalmadı. Bununla yanaşı, şifahi nitqlə bağlı metodların tətbiqi ona təminat vermir ki, şagird oxuduğu mətni sona qədər dərk elədir, məsələnin məğzinə dərindən bələd oldu. Yazılı tapşırıqlar məhz bu cür çatışmazlıqları aradan qaldırmaq imkanını verir. Yazılı tapşırıq zamanı, şagird fərdi, sakit vəziyyətdə işləyir. Çalışır ki, öz mülahizəsini aydın şəkildə formalaşdırsın və arqumentlərlə əsaslandırsın. Bu zaman ona başqalarını özünün fikrinin doğruluğuna  inandırmaq,başqalarının mülahizələrinə görə hesab vermək və güzəştə getmək lazım gəlmir. Amma əvəzində, şagirddən tarixi məzmunu əsaslı şəkildə təhlil etmək tələb edilir.

# 4. DƏRSİN PLANLAŞDIRILMASI

**Dərsi necə planlaşdıraq?**

Dərsi planlaşdırmazdan əvvəl, standartda bu mövzunun və konkret dərsin adı keçən nəticələri və indikatorları axtarıb tapın (hədəflər xəritəsinə bax) və özünüzə iki sual verin:

1. Arzuolunan nəticəyə necə nail olum?
2. Necə başa düşə bilərəm, nəticəyə nail ola bildim, ya yox?

Dərs elə planlaşdırılmalıdır ki, tədris materialının mənimsənməsi əsasən sinifdə (tədris prosesində) baş versin, tapşırıqlar isə az miqdarda verilməlidir ki, evdə məktəbdə əldə etdikləri biliyi möhkəmləndirə və təkrarlaya bilsinlər.

Dərsin keçirilməsi üçün sizə üç fazalı dərs modelini təklif edirik. ABC dərs modeli necədir?

O üç fazadan ibarətdir (A, B, C) və adı da məhz burdan götürülmüşdür.

**A fazasında** öyrənilesi məsələyə qarşı şagirdlərin təhriki və marağın oyadılması baş verir. Şagirdlər bu məsələ ilə bağlı artıq bildiklərini (və ya eşitdiklərini) yadlarına salırlar.

Elə bu fazada onların motivasiyası və fəallaşdırılması baş tutur. Şagirdlərin fəallaşması o deməkdir ki, onlar özləri düşünməli, diskussiyaya qoşulmalı, mülahizə yürütməli və suallar verməlidirlər. Sualların yarandığı yerdə tədqiqat və idrak da meydana gəlir. Buna görə də şagirdlərdə marağın oyadılmasını təşviq etmək lazımdır.

Bu pillədə şagirdlərin bu məsələləri nə üçün öyrənməli olduqlarını dərk etmələri əhəmiyyətlidir ki, dərs prosesini səbirsizliklə gözləmək hissi formalaşsın.

**B fazası –** bu biliyin qurulması (konstruksiyası) pilləsidir. Bu pillədə şagird yeni məlumat və ideyalarla tanış olur. Bu mətni oxumaqla və ya hadisələri birbaşa müşahidə etməklə, şəxsi təcrübəyə əsaslanmaqla, yaxud danışılanı dinləməklə və başqa fəallıqla həyata keçirilə bilər. “Konstruksiya” sözünün də bizə dediyi kimi, bu fazada şagird tərəfindən yeni məlumatın kəşfi, qazanılması, qurulması baş verməlidir, hazır biliyinin mexaniki yadda saxlanılması yox. Bu öyrənmə fazasıdır, nə zaman ki, şagird maksimal həddə fəal və müstəqildir. Bu zaman A fazasında oyadılmış marağın mənimsənməsi və meydana çıxmış suallara cavabların axtarılması, yeni məlumatın qavranması, tənqidi analiz və nəticələrin çıxarılması baş verir.

**C fazası –**dərk etmə ilə biliyin bütövləşməsi pilləsidir. Məhz bu fazada yeni biliyin keçmiş biliklə əlaqələndirilməsi, sintezi, biliyin bütövləşməsi, yeni anlayışların məğzinə varma baş verir. Yeni bilik insana yeni bir şey gətirir. Bu yenilik bacarıq və qabiliyyətlərlə, yaxud intellektin inkişafı ilə, dəyərlər sistemi ilə, əhval-ruhiyyənin formalaşması və ya praktiki məşğuliyyətlə bağlı ola bilər. Bu cür dərk etmək nəticəsində, şagird mövcud olanları yaxşı və uzunmüddətli yadda saxlayır və qazanılmış biliyi həyatında tətbiq edə bilir.

Bu fazanın vəzifəsi, şagirdlər arasında fikir mübadiləsi aparmaq, bunun əsasında leksik ehtiyatını zənginləşdirmək, baxış dairəsini genişləndirmək və dərk etməni dərinləşdirməkdən (Piajenin dediyinə görə, uşaq həmyaşıdı ilə mübahisəyə qoşulduğu andan düşünməyə başlayır) ibarətdir.

Dərsin planlaşdırılması prosesində müəllim ABC modelinin hər üç fazasını yaxşı dərk etməli və planlaşdırmalıdır.

Bu işdə ona bizim təklif etdiyimiz metodlar və dərs ssenarilərinin nümunələri yardım edəcək.

**Məqsəd**

Dərsi planlaşdıran zaman, dərsin məqsədi müəyyənləşdirilməlidir, çünki, dərsin məqsədi, öz növbəsində, onun nəticələrini təqdim edir, yəni müəllim öncədən müəyyənləşdirməlidir ki, onun şagirdləri bu dərsdə nəyə nail olmalıdır (dərsin konkret və perspektiv məqsədləri).

**Dərsin planında aydın görünməlidir:**

- Dərsin konkret məqsədləri;
- Dərsin perspektiv məqsədləri;
- Şagirdlərdən nələri gözləyirik? Bu dərsdə onlar hansı bilik və bacarıqlar qazanacaqlar?

**Vəzifələr:**

Məqsədlərə nail olmaq üçün qarşıya müəyyən vəzifələr qoyulmalıdır. Məsələn:

1. Dərsdə yerinə yetiriləcək fəallıqların müəyyənləşdirilməsi;
2. İşin yerinə yetirilmə mərhələləri;
3. Qazanılmış bilik və qabiliyyətləri aşkarlamaq;
4. Qiymətləndirmə meyarları.

**Zəruri şərtlər və resurslar:**

Məqsədlərə nail olmaq üçün, şagirdlərin planlaşdırılmış fəallığın keçirilməsinə hazır olub-olmadığı müəyyən edilməlidir. Müəllim gərək öncədən hesablasın, ona bu layihəni uğurla həyata keçirmək üçün nə qədər zaman və hansı resurslar lazımdır (dərslik, müxtəlif elmi və ya yaradıcı ədəbiyyat, iş sxemləri, əyani vasitələr, şəkillər, diaqramlar, qrafiklər, illüstrasiyalar və s.), yəni müəyyənləşdirilməlidir:

- Dərs üçün zəruri material;
- Nəzəri və təcrübi işin icra mərhələləri.

**Dərsin təsviri:**

Müəllim dərsin gedişatını, hər bir mərhələsini, bu dərsdə icra ediləcək fəallıqları xırdalığı ilə təsvir etməlidir(yəni, müəllim dərsin məqsədlərini necə həyata keçirir və əsasən, bu dərsin gedişatında nəyi daha əhəmiyyətli hesab edir).

**Dərsin gedişatı:**

Planın bu hissəsi dərsin bütün detalları ilə təsvir olunmasını nəzərdə tutur:

Arzu olunandır ki, müəllim dərsin gedişatını elə təsvir eləsin ki, onun məsləkdaşı istədiyi təqdirdə, təklif edilmiş dərs modelindən istifadə edə bilsin.

Yaxşı olardı ki, planda 3 mühüm faza xırdalığı ilə təsvir edilsin:

**1.** Giriş – çağırış, yəni təhrik etmə mərhələsi;

**2.** Əsas fəallıq – məzmunun həyata keçirilməsinə, məsələnin məğzinin qavranmasına xidmət edən əsas hissədir;

**3.** Nəticə hissəsi – idraki mərhələ, bu mərhələdə dərsin gedişatı zamanı müzakirə edilmiş mövzuların analizi, sintezi, müqayisəsi, ümumiləşdirilməsi və qazanılmış biliyin möhkəmləndirilməsi baş verir.

Yaxşı olar ki, müəllim planın hər bir fazasına nə qədər vaxt sərf edəcəyini öncədən hesablasın (dərsin zaman vahidində bölünməsi).

**Hər bir mərhələni ayrı-ayrılıqda müzakirə edək:**

**Giriş**

Dərsin giriş hissəsi, zəruri olduğu təqdirdə, əvvəlki dərsdə müzakirə edilmiş mövzunu xatırlamaqla (frontal suallarla) başlaya bilər. Bu mərhələdə şagird məsələ ilə bağlı məlumatı, keçilmiş materialı

hafizəsində bərpa etməlidir, hansı ki, öz növbəsində, şagirdin yeni mövzuya hazırlaşmasına təkan verəcək.

Əsas odur ki, aşağıdakıları öncədən müəyyən edəsiniz:

• Şagirdləri dərsin məqsəd və vəzifələri ilə necə tanış edəsiniz?

• Şagirdlərin diqqətinin cəmləşməsinə, mobilliyinə və motivasiyasına necə nail ola bilərsiniz?

• Dərsin məqsədlərini şagirdlərin maraqları ilə necə əlaqələndirə bilərik.

**Əsas hissə (məzmunun reallaşdırılması)**

Bu mərhələnin vəzifəsini, bir tərəfdən "çağırış" etapında oyadılmış marağın və impulsun saxlanılması, digər tərəfdən şagirdlərin fəallığının dəstəklənməsi təşkil edir (diskussiyada iştirak, tənqidi analiz, nöqteyi-nəzərlərin qarşılaşdırılması və müqayisəsi, alternativ yolların axtarılması).

Bu mərhələdə əhəmiyyət kəsb edir:

• Dərsin əsas mövzusunun müəyyənləşdirilməsi;

• Dərs prosesinin maraqlı idarə edilməsi üçün lazımi üsulların və metodların seçilməsi;

• Şagirdlər əldə edilmiş biliyin mühümlüyünü və əhəmiyyətini dərk edə bilməlidirlər.

**Yekun hissə (refleksiya, idrak)**

Dərsin bu hissəsində bir neçə zəruri məqamlar meydana çıxa bilər:

Dərsin bu mərhələsində şagirdlərin qazandıqları bilik və məlumatı qavranması və əsaslandırılması,məsələ ilə bağlı şəxsi münasibətin formalaşması, nöqteyi-nəzərin və ya informasiyanın interpretasiyası (öz sözləri ilə ifadə etmə) prosesi gedir.

Şagird ona tanış məzmunda mənimsədiyi, öz sözləri ilə ifadə etdiyi və əsaslandırdığı hər şeyi daha yaxşı yadda saxlayır. Qavrama məlumatın məzmun sxemində yerləşdirildiyi zaman bünövrəli olur.

Bu fazanın ikinci vəzifəsi şagirdlər arasında sağlam fikir mübadiləsidir. Refleksiya zamanı diskussiyaya qoşulma, nəinki təkcə diskussiya iştirakçılarına, həmçinin passiv dinləyiciləri belə dərk etmək, düşünmək və bunun əsasında, müzakirə edilmiş məsələ ilə bağlı öz fikrini və münasibətini formalaşdırmaq imkanını

yaradır. Bundan başqa, bu tədris prosesində dəyişiklik və re-konseptuallaşma pilləsini təşkil edir. Bu mərhələdə, yeni məlumatın inteqrasiyasına dair müxtəlif vasitələrlə tanışlıq prosesi baş tutur. Bu sonuncu, bizi daha çevik konstruksiyalara yaxınlaşdırır, hansını ki, gələcəkdə şagirdlər daha təcrübi və məqsədyönlü şəkildə istifadə edə bilərlər.

Bundan başqa, dərsin yekun, yəni refleksiya mərhələsində müəyyənləşdirilməlidir:

1. Dərsin sonunda yekunlaşdırmanın hansı üsuluna müraciət edirsiniz.

2. Şagirdlərlə əks-əlaqəni necə həyata keçirirsiniz.

Dərsin sonunda müəllim şagirdlərə tapşırıq verir: evdə bu dərsdə nə etdiklərini bir daha yadlarına salsınlar, dərslikdə verilmiş məlumat (mətn, mənbə) ilə diqqətlə tanış olsunlar (oxusunlar) və "ev tapşırığını" yerinə yetirsinlər.

**Xüsusi təhsilə ehtiyacı olan şagirdlərin təhsil prosesinə qatılması haqqında metodoloji tövsiyə**

Təhsil alarkən, bir çox uşaq tədrislə bağlı çətinliklərlə üzləşir, hansı ki, şagirdin fiziki, intellektual, sosial, emosional, linqvistik və ya başqa vəziyyətlər ilə bağlı olur. Ölkənin təhsil sisteminin başlıca vəzifəsi bütün uşaqların uğurlu təhsil alma yollarını axtarıb tapmaq öhdəliyini qoymaqdır.

İnklüziv təhsil xüsusi təlim ehtiyacı olan şagirdlərin təhsil prosesinə qoşulması anlamına gəlir. Onun məqsədi uşaqların təliminin dəstəklənməsi, onların inteqrasiyası, imkanların üzə çıxarılması və inkişaf

etdirilməsindən ibarətdir. "İnklüziya" sözü qoşulmaq mənasını daşıyır. İnklüziv təhsilin məqsədi, bütün uşaqlara yaşayış yerinə yaxın, həmyaşıdları ilə oxumaq və keyfiyyətli təhsil almaq üçün bərabər imkanların verilməsindən ibarətdir.

İnklüziv təhsil bütöv məktəbin və fənn müəlliminin sərasər əməyini tələb edir ki, onlar öz növbəsində, xüsusi təhsilə ehtiyacı olan şagirdlərin imkanlarını gücləndirə və inkişaf etdirə bilsin, onun akademik və sosial bacarıq və vərdişlərini təkmilləşdirsin, şagirdi müstəqil həyat üçün hazırlasın və cəmiyyət üçün tamhüquqlu bir üzv kimi formalaşmasını fəal şəkildə dəstəkləsin. O, məktəb və sinif fəallıqlarında tam surətdə iştirak etməlidir.

Diferensiasiya nəzəriyyəsi nəticəyə əsaslanır ki, buna əsasən şagirdlər arasında əhəmiyyətli fərqlər mövcuddur (K. Tomlinson). Bu nəticə əsasında diferensiasiya nəzəriyyəsi bizə strategiya təklif edir ki, bu da müəllimə kömək göstərir, əlahiddə şəraitlər yaratmağa və hər bir şagirdin biliyə yaxşı yiyələnməsinə imkan verir. Bunun üçün müəllim müxtəlif növ tədris materialından istifadə edir, fərqli tapşırıqlar verir və başqa cür təcrübəyə əl atır.

Bu nəzəriyyəyə görə, öyrənmə prosesində həyata keçirilən fəallıqların məzmunu, prosesi, məhsulu şagirdlərin nəyə hazır olduqlarından irəli gələrək, sistematik dəyişir.

Sinif otağında diferensiasiya nəzəriyyəsinin praktiki olaraq həyata keçirilməsi zamanı müəllim aşağıdakı tərkib hissələrin modifikasiyasını başa çatdırır:

- Tədris materiallarının;
- Tədris resurslarının;
- Tədris mühitinin;

Modifikasiya 3 əsas amilə görə vacibdir:

1. Oxumaq imkanı;
2. Oxumaq motivasiyası;
3. Oxumaq səmərəliliyi.

Bu hər üç aspekti mütləq bir-biri ilə əlaqələndirməliyik;

- Şagirdin hazırlığı ilə;
- Maraqla;
- Oxumaqla.

Burası da faktdır ki, bütün uşaqlar bir-birlərindən fərqlidirlər. "Standart" şagird mövcud deyil və ideal üsul mövcud deyil ki, bununla müəllim bütün şagirdlərin problemlərini qaydasına salsın. Diferensiasiya nəzəriyyəsi məhz bu zaman bizə kömək göstərir, hansı ki, şagirdlər arasında əhəmiyyətli fərqlərin mövcudluğunu qəbul edir. Tədris prosesinin planlaşdırılması zamanı o tədrisin modallaşdırılması nöqteyi-nəzərindən diferensial yanaşma tətbiq edir. Onlara istinad etməklə, müəllim şagirdlərin fərqləndirilməsinin tədris məqsədi ilə nəzərdə tutulmuş nəticələrə nail olmaq üçün bu üsuldan istifadə edir.

- Dinləmə;
- Vizual;
- Kinestetik.

Vizual öyrənənlər

Vizual öyrənənlər sinfin ən iri qrupunu təşkil edirlər. Bu cür şagirdlər tədris materialını ona görə "görməlidirlər" ki, o anlaşılan olsun. Əhəmiyyətli cəhət burasıdır ki, vizual kömək vasitələri olmalıdır ki, bunların vasitəsilə onlar məlumatı görə bilsinlər.

Dinləməklə öyrənənlər

Dinləməklə öyrənənlər sinfin kiçik qrupunu təmsil edirlər. Çox güman ki, oturmaqla və dinləməklə öyrənən şagirdlərin sayı, multimedianın, bugünkü texniki vasitələrin ucbatından çox azalmışdır.

**Kinestetik üslub ilə öyrənmə**

Sprencer deyir: "hər bir dərs hərəkəti əhatə etməlidir. Bu hərəkəti götürün və onu tez-tez təkrar edin. Axırda o daimi yaddaşa çevrilir. Əgər düzünü desək, mühazirə tipli dərslərə üstünlük verən pedaqoqlar, kinestetik öyrənmə zamanı böyük çətinliklərlə qarşılaşacaqlar. Bu qisimdən olan şagirdlərə hərəkət lazım gəlir. Onlara həmçinin elə tədris modeli lazımdır ki, onu əllə tutsunlar və toxunsunlar. Bu cür şagirdlərə təcrübi fəallıqlarda iştirak etmək və təcrübi öyrənmək ona görə lazımdır ki, tədris materialı onlar üçün başa düşülən olsun. Diferensiasiya nəzəriyyəsini tətbiq edərkən müəllim aktivlikləri müxtəlif modullu şagirdlər üçün planlaşdırır, səmərəli tədris mühiti yaradır, bununla da sinifdə olan müxtəlif imkanlara malik şagirdlərə oxumaq imkanı yaradır. Nə zaman ki, şagirdə tədris materialı verilir, müvafiq modallaşmada məlumatın sürətli kodlaşdırılması baş verir və o itmir.

**Sinif otağında diferensiasiya nəzəriyyəsindən istifadə etmək müxtəlif formatda mümkündür:**

**1.** Tədris materialı və fəallıqlar bütün moduldan olan şagirdlər üçün nəzərdə tutulmuşdur; bu formatda öyrənməyin nailiyyəti ondan asılıdır ki, müəllim fəalların səviyyəsində diferensiasiya nəzəriyyəsinin həyata keçirilməsini nə dərəcədə düzgün yerinə yetirə bilir.

**2.** Sinifdə qrupların yaradılması tədris modallarının əsasında baş verir və hər bir qrup üçün müvafiq məşğələ yaradılmışdır. İkinci format bu mülahizəyə söykənir ki başlıca cəhət bundan ibarətdir, şagird bu modallığı öyrənsin, Hansı ki, onun üçün dominantdır. Bu formatla öyrənməyin səmərəliliyi iki faktordan asılıdır:

1. Müəllim qrupların komplektləşdirilməsini müvafiq modallara əsasən necə düzgün bacarmışdır;
2. Tədris fəallığı konkret modallaşdırma çərçivələrində nə dərəcədə düzgün adaptasiya edilmişdir.

Təcrübədə ikinci modallaşma daha populyardır, lakin təhsil mütəxəssisləri daim birinci formatın səmərəliliyini qeyd edirlər.

# 5. V-VI SİNİFLƏRİN STANDARTI

**a) VI sinfin sonunda nail olunmalı nəticələr**

**İndekslərin izahı**

Başlanğıc pillədə standart üzrə müəyyənləşdirilmiş nəticənin qarşısında indeks göstərilir, hansı ki, fənnə, tədris mərhələsinə və standart nəticəsinin nömrəsinə işarə edir.; məs. **İct.elm.ibt.(II).1**.:

**"İct.elm"** –ictimai elmlərə işarə edir;

**"İbt." –** ibtidai pilləni göstərir;

**"(II)" –** işarə edir ki, standart V-VI sinifləri əhatə edir

**„1"** – standartın nəticəsinin nömrəsini göstərir.

| **"Bizim Gürcüstan" standartı (V-VI siniflər)** | |
|---|---|
| **Nəticələrin indeksi** | 1. İstiqamət: zaman, məkan və dəyişkənlik |
| | Şagird bacarmalıdır: |
| **İct.elm.ibt.(II).1.** | Tarixi faktları və hadisələri xronoloji kəsikdə dərk etməyi və ifadə eləməyi. Onların müasir sosial-mədəni mühitlə və tarixi irsiliklə əlaqələndirməyi; |
| **İct.elm.ibt. (II).2.** | Əfsanələr və miflərin, əhəmiyyətli tarixi hadisələrin və şəxsiyyətlərin yerli mühit ilə əlaqələndirməyi; Ölkənin inkişafında şəxsiyyətin rolunu dərk etməyi; |
| **İct.elm.ibt.(II).3.** | Gürcüstan regionlarının təbii və sosial-mədəni göstəricilərinin öyrənilməsini; |
| **İct.elm.ibt.(II).4.** | Xəritənin legendasında verilmiş şərti işarələr vasitəsilə xəritəyə köçürülmüş məlumatı oxumağı; |
| **İct.elm.ibt.(II).5.** | Gürcüstan üçün xarakterik olan təbii hadisələri yaradan səbəbləri və onların nəticələrini dərk etməyi; təbii hadisələrə müvafiq reaksiya verməyi və onlardan mühafizə olunmağı; |
| | **2. İstiqamət: təşəbbüs və istehsal** |
| | Şagird bacarmalıdır: |
| **İct.elm.ibt.(II).6.** | Ölkənin inkişafında ticarətin, başqa ənənəvi və dövrümüzün peşə və məşğuliyyətlərin əhəmiyyətini və zərurətini dərk etməyi; |
| **İct.elm.ibt.(II).7.** | İnsan və maddi resursları nəzərə almaqla nəticəyə yönəlmiş məşğuliyyəti planlaşdırmağa təşəbbüs göstərməyi; |
| | 3. İstiqamət: sosial-mədəni inkişaf, vətəndaşlıq və təhlükəsizlik |
| | Şagird bacarmalıdır: |
| **İct.elm.ibt.(II).8.** | Onun bir uşaq kimi müəyyən hüquq və vəzifələrini, eləcə də məsuliyyəti dərk etməyi; təsbit edilmiş qayda və qanunlar əsasında öz hüquqlarını reallaşdırmağı və başqalarının hüquqlarını müdafiə etməyi. |
| **İct.elm.ibt.(II).9.** | Cəmiyyət üçün aktual problem və hadisələrin tarixi və müasir dövr kəsiyində dərk etməyi; özünün iştirakı ilə onların düzəldilməsi mexanizmləri dərk etməyi. |
| **İct.elm.ibt.(II).10.** | Sağlam həyat tərzininin (şəxsi gigiyena, sağlam qida, ənənəvi və dövrümüzün idman fəallıqları) əhəmiyyətini dərk etməyi və ona əməl etməyi; |
| **İct.elm.ibt.(II).11.** | Təhlükəsiz qaydalarına əməl etməyin əhəmiyyətini dərk etməyi və təcili və məişət vəziyyətlərində müvafiq olaraq davranmağı (məs., küçədə hərəkət edərkən, nəqliyyatda olarkən, ekskursiya, səfər zamanı, təbii fəlakət olarkən); |

| “Bizim Gürcüstan” standartı (V-VI siniflər) | |
|---|---|
| **İct.elm.ibt.(II).12.** | Fərdin və cəmiyyətin inkişafı üçün dəyərlərin, məs.: demokratiya prinsiplərinin, tarixi-mədəni irsin qorunmasının, ətraf mühitin mühafizəsinin, tolerantlığın əhəmiyyətini dərk etməyi; |
| **İct.elm.ibt.(II).13.** | Gürcüstanın etnik, mədəni-dini rəngarəngliyini idrakı və pozitiv münasibət göstərməyi; |
| **İct.elm.ibt.(II).14.** | Təbii mühitin, tarixi və mədəni irsin əhəmiyyətini dərk etməyi və ona qarşı qayğıkeş münasibət göstərməyi. |
| **İct.elm.ibt.(II).15.** | Onun ətrafında olan sosial-mədəni institutların (məs., məktəb, kultativ (dini) tikililər, kino, klub, muzey, tibbi müəssisə, polis) funksiyalarını dərk etməyi. |

**b) Məzmun**

Tədris prosesi aşağıdakı idraki kateqoriya və mövzuların emalı əsasında idarə edilməlidir:

**Anlayışlar və terminlər**

"Bizim Gürcüstan" fənninin standartı sadalanan anlayışların ekspilisit ( açıq) emalını deyil, implisit (qapalı) emalını nəzərədə tutur.

1. Şəxsiyyət, ictimai qruplar;

2. Zaman, fasiləsizlik və dəyişkənlik (tarix, mənbə, fakt və interpretasiya, təqvim, əsr, ilin qeydə alınması);

3. Camaat, yerləşmə, mühit (coğrafiya, xəritə/yerin planı; təbii resurslar, məskunlaşma tipləri, yaşama tipləri, landşaftı (təbii), ekologiya/ətraf mühitin qorunması, relyef, iqlim, təbii hadisələr və onlardan qorunma, fövqəladə vəziyyət, millət, etnik qrup, tarixi-etnoqrafik diyar);

4. İqtisadiyyat (peşə, kənd təsərrüfatı, sənaye, ticarət, nəqliyyat və kommunikasiya);

5. Dövlət və vətəndaş (cəmiyyət, məsuliyyət, sağlam həyat tərzi, əhali, iştirak, mülki təhlükəsizlik, qanun, münaqişə, zorakılıq).

| **Qiymətləndirmə** | Qrup işinin qiymətləndirilməsi rubrikası |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, format vərəqləri |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, qrup işi |
| **Əvvəl qazanılmış bilik** | Kartlinin coğrafi yerləşməsi, fiziki-coğrafi xüsusiyyətləri barədə informasiya |

Dərsə əqli hücumla başlayın – müxtəlif regionların bir-biriləri ilə hansı tip əlaqələri ola bilər (ehtimal olunan cavablar: düşmənçilik, mehriban qonşuluq, ticarət). Bundan sonra şagirdlərə öncədən qazanılmış biliyin fəallaşdırılması üçün suallar verin: a. Kartlinin coğrafi yerləşməsi necədir, dağmı üstünlük təşkil edir, yoxsa aranmı. Bundan sonra ehtimal yürüdün təsərrüfatın hansı sahələri inkişaf etdirilə bilər. Məsələn, əkinçilik, heyvandarlıq, meyvəçilik.

Ciqsou metodu ilə mətni işləmək sizə imkan verəcəkdir ki, böyük həcmdə mətni qısa vaxtda işləyəsiniz (bax, Ciqsou metodu səh. 12-13). Hər bir qrup, başqa qrup tərəfindən adı çəkilməyən fikirləri bildirirlər.

| Kartlidə qoyunçuluğun inkişaf etdirilməsinin hansı ənənələri vardır | Qonşu regionlar Kartlinin nəyinə gərək idi | Kartli qonşu regionların nəyinə gərək idi | Qoyunçuluğun iqtisadiyyatın inkişafında hansı rolu oynadığı haqda ehtimal yürüdün |
|---|---|---|---|
| | | | |

**Tövsiyə: tapşırıq 8, paraqraf 1.3**

Şagirdlərə həvalə edin ki, Müqəddəs Ninonun msxetalı çobanlarla görüşünün, Kartli çarlığının yaranma tarixinin hansı əsrdə baş verdiyini zaman xəttinə köçürsünlər. Eləcə də qoyulmuş suallara cavab versinlər

- Bu iki hadisəni bir-birindən neçə yüz il ayırır?
- Bizi Kartli çarlığının yaranmasından neçə min il ayırır?

**Tövsiyə. Tapşırıq 9, paraqraf 1.3. cədvəlin doldurulması**

| Adlar | Nədə istifadə olunur |
|---|---|
| Qoyun yunu | |
| Süd | |
| Ət | |
| Dəri | |

| Dərsin mövzusu | 1.4. Kartlinin qala-istehkamları |
|---|---|
| **Dərsin məqsədi** | Tanış olsunlar, Kartli özünü düşmənlərdən hansı vasitələrlə müdafiə edirdi |
| **MTP uyğunlaşma** | (II) 2 (II) 3 (II) 6 (II) 12 (II) 14 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Gürcü döyüşçüsü fotosunun interpretasiyası.<br>**Fəallıq 2.** Sual-cavab – silahdan başqa, əhali özünü düşmənlərdən necə müdafiə edə bilərdi. Cavablar yazı lövhəsinə yazılır. (5 dəq)<br>**Fəallıq 3.** Kartlinin qala-istehkamları və müşahidə köşkləri barədə qısa mühazirə. (10 dəq)<br>**Fəallıq 4.** Diskussiya təşkil edin – tarixi qala-istehkamları necə mühafizə və xəbərdarlıq etmək olar və əhalinin və dövlətin bu işdə rolu necə olmalıdır. (15 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə<br>**Fəallıq 6.** Ev tapşırığı: Qala-istehkamların barəsində məlumat toplayın, “Kartlidə kim kiçik qala tapdı, onun üçün sahəni kim düşündü” başlıqlı sərgi təşkil edin. |
| **Qiymətləndirmə** | Cari tapşırığın qiymətləndirilməsi rubrikası |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, illüstrasiyalar |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, fərdi |
| **Əvvəl qazanılmış bilik** | Kartlinin təbii və mədəni xüsusiyyətləri |

Dərsə qədim gürcü döyüşçüsü fotosunun göstərilməsi ilə başlayın və şagirdlərdən buna cavab vermələrini xahiş edin: sizin fikrinizcə, bu foto nəyə görə seçilmişdir? Bu şəkildə sizin üçün tanış olan nədir? Bu Fəallıq təbii olaraq növbəti fəallığa keçməkdə sizə kömək göstərəcəkdir, harada ki, şagirdlər o vasitələri sadalayacaqlar, hansılar ilə əhali özünü düşməndən müdafiə edirdi. Gürcü qala-istehkamları və müşahidə məntəqələri barədə mini-mühazirə qısa vaxt ərzində lazımı məlumat verməkdə sizə kömək göstərəcəkdir. Qori qalası Qori şəhərində tarixi qala-istehkamdır. Yüksək daşlıq yamacda, şimal divarında qorunub saxlanılmış xarabalıqlar buna dəlalət edir ki, burada hələ bizim eradan əvvələqədər əhali məskunlaşmışdır. Mənbələrdə Qori qalası XII əsrdən xatırladılır. Bugünkü simasını abidə 1774-cü ildə almışdır, bu zaman II İrakli bu qalanı tamamilə yeniləşdirmişdir.

Surami qala-istehkamı və Suraminin özü bizim eradan əvvəl II əsrdə çar Parnacom tərəfindən tikilmiş olmalıdır. İndiki simasini tikili ehtimal olunduğuna görə, orta əsrlərdə almışdır.

Msxeta şəhərində Araqvi çayının sağ sahilində qayanın başında Bebrissixe ucaldılmışdır. Qədim dövrdə onun adı Belta idi. Antik dövrdə tikilmişdir. Haçansa bu qala Msxetanın giriş qapısını Araqvi dərəsi tərəfdən bağlayırdı. Bebrissixe barədə belə bir əfsanə də mövcuddur. Haçansa bu yerlərdə qardaş-bacı, Mamuka ilə Makrine yaşayırmışlar. Mamuka təhlükə ilə üzləşir. Bacı-qardaş Allaha yalvarırlar ki, təkcə bu dəfə bizi xilas elə və burada kilsə tikəcəyik. Mamuka xilas olur və öz vədinə əməl edir. Bacı-qardaş kilsə həyatına başlayırlar. Makrine 70 yaşında vəfat edir. Ağsaqqallı qoca Mamuka onunla vidalaşmağa gedir və deyir: mənim bacım, biz öz vədimizə əməl etdik. Bunu deməklə Mamuka canını tapşırır. Sən demə Bebrissixe adını qala buradan götürür.

Armazissixe Msxetada memarlıq abidəsidir, Armazisxevinin başlanğıcında, çətin gedilən qayalıq dağda yerləşir. Qala qüllədən və divardan ibarətdir. Daş qırıntılarından tikilmişdir və olduqca zədələnmişdir.

Uplissixe qayalıqda tikilmiş şəhərdir, bürünc dövrünün memarlıq möcüzəsidir. Qorinin şərqində, Kür çayının sağ sahilində yerləşir. Əsas hissəsi antik dövrdə tikilmişdir. Orta əsrlərin qayalıqda tikilmiş kompleksinə də rast gəlinir. İçərişəhər nisbətən yaxşı qalmışdır, hansı ki, həm qərbdən və həm də cənubdan təbii olaraq müdafiyə olunur. Şərqdən və Şimaldan isə süni üsulla kəsilmiş böyük ovuq onu mühafizə edirdi, hansını ki, daxili tərəfdən köşklü divar mühafizə edirdi. Mağaralar ayrı-ayrı qruplarda yerləşmişdir. Şəhərin yuxarı hissəsində yerləşmiş salonlardan daşda hörülmüş mərkəzi salon xüsusi qeyd olunmalıdır. Uzun əsrlər boyu Uplissixe dəfələrlə düşmən qarşısında qalmışdır. Əmin amanlıq zamanı qayada tikilmiş şəhər kitabçılıq və təhsil ocağı idi. Bu gün Uplissixe gürcüləri və xarici turistləri eyni cür həyəcanlandırır.

Samşvilde Şərqi Gürcüstanda, tarixi Kvemo Kartlidə ən qədim tarixi qala- şəhərlərdən biridir. Xarabalıqlar sifətində qalmışdır. Onun ilkin adı Orbisa qalası idi. Bizim eradan əvvəl beşinci əsrdə tikilmiş olmalıdır. Samşvilde eristaviliyinin mərkəzi hesab olunurdu.

**Diskusiyaları keçirmək üçün tövsiyələr:**

Mövzu- qala- istehkamları necə qoruyaq və əhalinin və dövlətin bu işdə rolu necə olmalıdır.

Qala-istehkamların əhəmiyyəti müzakirə olunur və vətəndaşlar tərəfindən öz mövqelərini əks etdirmək zərurəti məsələsi qoyulur.

Qala-istehkamların mühafizəsində əhalinin fəal iştirakının əhəmiyyətinin dərk edilməsi və çətinliklərinin təhlil olunması.

Materiallar: Ağ vərəqlər

İştirakçılar iki qrupa bölünsünlər. Şagirdlərə tövsiyə edin ki rol oyununda iştirak etsinlər, burada qala-istehkamların qorunmasında vətəndaşların və dövlətin iştirak etməsi ilə əlaqədar əks mülahizələr söyləsinlər. Bir qrupun fikrincə, tarixi abidələrin qorunması dövlətin işidir, çünki o vəsait və resurslar ayırmalıdır. Aparıcı (bu halda müəllim) şagirdlərə ikinci qrupa inandırmağı təklif etməlidir ki, o şagirdlər, hansılar ki, bu mövqedədirlər və öz arqumentlərini təqdim etsinlər. Şəxsən, tarixi irsə qayğı bütün vətəndaşların borcudur, çünki keçmişin unudulması gələcəyə də təhlükə yaradır, dövlət isə bu zaman yalnız vətəndaşlara kömək edə bilər.

Aparıcı üçün məsləhətlər – hər iki qrupa öz arqumentlərini təqdim etmək üçün bərabər imkan verilməlidir.

**Ev tapşırığı** – elektron resursların köməyi ilə Kartlinin qala-istehkamları barədə informasiya və şəkillər toplayın və sonra sərgi təşkil edin (bax, resursların siyahısı).

**Tövsiyə: tapşırıq 5, paraqraf 1.4**

Bu tapşırığın verilməsi zamanı şagirdlərə xatırladın ki, aprelin 30-da Gürcü ordusu günü qeyd edilir. Əsgərlər hərbi xidmətə başlayan zaman and içirlər. Şagirdlərə o peşələr haqda məlumat toplamağı həvalə edin, hansıların ki, nümayəndələrinin and içməsi qaydası vardır.

| Dərsin mövzusu | 1.5. Rəngarəng Kartli |
|---|---|
| **Dərsin məqsədi** | Kartlidə məskunlaşmış qruplarla, onların ənənələri ilə tanış olsun və Kartlinin əhalisinin tolerantlığı barədə fikir yürütsün, müxtəlif etnik qrupların Kartlidə məskunlaşması səbəblərini təhlil etsin |
| **MTP uyğunlaşma** | (II) 1 (II) 3 (II) 5 (II) 9 (II) 12 (II) 13 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Tolerantlıq sözü üzrə assosiasiyalı xəritə. (2 dəq)<br>**Fəallıq 2.** Kartlidə yaşayan etnik qruplar barədə mini mühazirə(5 dəq)<br>**Fəallıq 3.** Mətn üzərində iş-şagirdlər qruplara bölünürlər və hər qrup bir mövzu üzərində işləyir: a. Yəhudilər Kartlidə, b. Assuriyalılar Kartlidə, c. Ermənilər və azərbaycanlılar Kartlidə. (10 dəq)<br>**Fəallıq 4.** Təqdimat – şagirdlər təqdimatçı seçirlər, bu isə öz növbəsində öz əl işlərini təqdim edir. (15 dəq)<br>**Fəallıq 5.** Diskussiya – qeyri-gürcü əhalisi gürcü dilini bilməlidir, yoxsa yox. (5 dəq)<br>**Fəallıq 6.** Qiymətləndirmə (5 dəq)<br>**Fəallıq 7.** Ev tapşırığı- Gürcüstanda yaşayan başqa etnik qruplar barədə məlumat toplasınlar. |
| **Qiymətləndirmə** | Qrup halında işin qiymətləndirilmə meyarları. |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, format vərəqləri, |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, qruplar |
| **Əvvəl qazanılmış bilik** | Coğrafi və siyasi mərkəz kimi Kartlinin barəsində məlumat |

Dərsin hazırlanması fazasında tolerantlıq sözü üzrə assosiasiyalı xəritədən istifadə edin(məsələn, xoş rəftar, hörmət, qayğı, kömək, canıyananlıq).

Kartlidə yaşayan etnik qruplar barədə mini mühazirə keçirin.

Məsələn, izah edin elə yer axtarıb tapmaq çətindir ki orada bu cür kiçik ərazidə bu qədər müxtəlif millətlərin insanları yaşaya bilsin (osetinlər, ermənilər, azərbaycanlılar, yunanlar, kürdlər, yəhudilər) etnik rəngarəngliyə baxmayaraq, Gürcüstanda yaşayan xalqlar bir-biriləri ilə aktiv mədəni və təsərrüfat əlaqələri qururlar və onların burada məskunlaşmasını bunlar şərtləndirir.

Şagirdləri qruplara bölün. Hər bir qrup dərsin mətni əsasında bir mövzu üzərində işləsin. a. Yəhudilər Kartlidə, b. Assuriyalılar Kartlidə, c. Ermənilər və Azərbaycanlılar Kartlidə. Qruplar təqdimatçı seçirlər. Qiymətləndirmə qruplarda işlərin qiymətləndirilməsi kateqoriyaları ilə baş verəcəkdir.

Arzu olunandır ki, şagirdlər mülahizə yürütsünlər, qeyri-gürcü əhalisi gürcü dilini bilməlidirmi. Çalışın mülahizəni bu cəhətdən inkişaf etdirin ki, şagirdlər qeyri-gürcü əhalinin gürcü ictimaiyyətinə inteqrasiyası üçün gürcü dilini bilməyin zəruriliyini görsünlər ki, bu da gələcəkdə onların nailiyyətinin əsası ola bilər.

Elektron resursların yaxud da köməkçi ədəbiyyatın vasitəsi ilə Gürcüstanda yaşayan başqa etnik qruplar barədə də informasiya toplasınlar (məsələn, ruslar, ukraynalılar, yunanlar, çeçenlər).

| **Dərsin mövzusu** | **1.6. Kartlidə məskunlaşma tipləri** |
|---|---|
| **Dərsin məqsədi** | Şagird məskunlaşmanın köhnə və müasir tipləri ilə tanış olur<br>Şagird təbii şəraitlərin və resursların məskunlaşma tiplərinə təsirini təhlil edir |
| **MTP uyğunlaşma** | (II) 3 (II) 5 (II) 7 (II) 11 (II) 15 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Əqli hücum – ev necə olmalıdır (5 dəq)<br>**Fəallıq 2.** Mətnin analizi – şagirdlər dərsliyin mətnini fərdi sürətdə işləyirlər və yazılı sürətdə onun barəsində mülahizə yürüdürlər ki, Kartlidə evləri tikən zaman hansı faktorları nəzərə alırdılar (20 dəq)<br>**Fəallıq 3.** Yerinə yetirilmiş işin təqdimatı (5 dəq)<br>**Fəallıq 4. Venn** diaqramı vasitəsi ilə torpaq örtüklü və salon tipli evlərin müqayisə edilməsi (10 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə<br>**Fəallıq 6.** Ev tapşırığı – “müasir evlər” mövzusunda inşa yazsınlar |
| **Qiymətləndirmə** | Cari tapşırıqların qiymətləndirilmə rubrikası |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, cütlüklərlə |
| **Əvvəl qazanılmış bilik** | Kartlinin coğrafi mühiti barədə informasiya |

Dərsə əqli hücumla başlayırıq – ev necə olmalıdır (ehtimal olunan cavablar : rahat, isti, əlverişli, komfort, mühafizə olunan, abadlaşdırılmış).

Mətnin analizi şagirdlərə imkan verəcəkdir ki, bu faktorlar barədə mülahizə yürütsünlər, hansılar ki, keçmişdə evləri tikən zaman nəzərə alırdılar (məsələn, mühafizə olunma, təhlükəsizlik, içməli və suvarma su ehtiyatlarının yaradılması).

Eləcə də mətnlə və illüstrasiyalarla tanışlıq şagirdlərə imkan verəcəkdir ki, keçmişdə və indi evlərin tipləri barədə məlumat alsınlar və cədvəli doldursunlar.

| Evlərin tipi | İnşaat materialları | Xarakterik əlamətlər |
|---|---|---|
| Torpaq örtüklü | | |
| Salon tipli | | |
| Müasir | | |
| | | |

Cədvəli doldurduqdan sonra Venn diaqramı vasitəsilə, torpaq örtüklü və salon tipli evləri müqayisə edə biləcəklər.



| Dərsin mövzusu | 1.7. Kartlidə təsərrüfat sahələri |
|---|---|
| Dərsin məqsədi | Şagird Kartlidə inkişaf etmiş təsərrüfat sahələri ilə tanış olur.<br>Şagird o faktorlar barədə mülahizə yürüdür, hansılar ki, Kartli üçün xarakterik olan təsərrüfat məşğuliyyətini şərtləndirirdi |
| MTP uyğunlaşma | (II) 3 (II) 6 (II) 7 (II) 13 |
| Dərsin gedişatı | **Fəallıq 1.** Müəllim şagirdlərə illüstrasiyaları göstərir, harada ki, taxıl, üzüm, qoyun, mal məhsulları əks olunmuşdur və şagirdlərdən xahiş edir ki, mülahizə yürütsünlər, təsərrüfatın hansı sahələri inkişaf etdirilə bilər. Cavablar yazı taxtasına yazılır. (10 dəq)<br>**Fəallıq 2.** Təsərrüfatın sahələri barədə mini mühazirə. (5 dəq)<br>**Fəallıq 3.** Cütlüklərdə mülahizələr hazırlasınlar, təsərrüfatın hansı sahəsinin inkişafı ölkənin iqtisadiyyatı üçün faydalı ola bilər və nəyə görə. Öz mülahizələrini sinfin qarşısında təqdim etsinlər. (10 dəq)<br>**Fəallıq 4.** Təqdimat (15 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə<br>**Fəallıq 6.** Ev tapşırığı – qruplara bölünsünlər və super marketlərə gediş təşkil etsinlər. Tədqiq etsinlər, gürcü istehsallı hansı məhsul satılır və onlara tələbat necədir. |
| Qiymətləndirmə | Qrup halında |
| Resurslar | İşin qiymətləndirilmə meyarları |
| Sinfin idarəedilməsi | Ümumi sinif, qruplar |
| Əvvəl qazanılmış bilik | Təbii şəraitlər, məskunlaşma tipləri barədə məlumat |

Paraqrafda verilmiş illüstrasiyalar şagirdlərə imkan verəcəkdir ki, Kartlidə inkişaf etmiş təsərrüfat sahələri barədə ehtimal yürütsünlər (məsələn, əkinçilik, heyvandarlıq, üzümçülük).

**Mini mühazirə üçün material**

Gürcüstan ki, buğdanın, tənəyin və bəzi meyvə bitkilərinin (alma, armud, heyva və s.) vətəni hesab olunurdu və bizim kənd təsərrüfatının ki, qədim tarixi var idi, bunu yunan tarixçiləri Strabon da və Ksenefont da təsdiq edirlər. Onların bildirdiklərinə görə, Gürcüstan hər cür yaxşılıqla bəzədilmiş, hər cür meyvə və bar ilə bəzədilmiş ölkə imiş. Tarix elmləri doktoru Nodar Şoşitaişvili kənd təsərrüfatları barədə bu cür məlumatlar verir: “ Keçmişdə Gürcüstan, əgər ölkədə ekstremal vəziyyət yox idisə, nəinki təkcə öz əhalisini, eləcə də yaxın şərqin əhalisini də həqiqətən göz oxşayan rəngarəng məhsullarla təmin edirdi. Şərqi Gürcüstandan buğda, arpa, darı, lobya aparırdılar. Şida Kartli aranı Gürcüstanın anbarı rolunda çıxış edirdi, Kvemo Kartli – Qarayazı ərazisi bərəkət rəmzinə çevrilmişdir. Gürcüstandan İrana, Türkiyəyə, Rusiyaya, Avropa bazarlarına şərab, tütün, meyvə, qarğıdalı, buğda, arpa və hətta yumurta da aparılırdı.

| Dərsin mövzusu | 1.8. Kartlidə qarşılıqlı kömək ənənələri |
|---|---|
| **Dərsin məqsədi** | Şagird qarşılıqlı yardım – kömək ənənələri ilə tanış olur.<br>Şagird öz məsuliyyətini dərk edir. |
| **MTP uyğunlaşma** | (II) 5 (II) 7 (II) 9 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Sual-cavab: müəllim şagirdlərdən xahiş edir ki, öz həyatlarından elə bir hadisəni yada salsınlar, nə zaman ki başqalarına kömək etdilər, onu da yada salsınlar, nə zaman ki, ona kömək göstərdilər. Bu zaman onların qəlbində hansı hiss oyanır?<br>**Fəallıq 2.** Bilik xəritəsi – təbii fəlakətlər.<br>**Fəallıq 3.** Müəllimin xahişi ilə şagirdlər öz mülahizələrini bildirirlər, kömək və təbii fəlakət hansı əlaqədədir.<br>**Fəallıq 4.** Müəllim şagirdlərə Vere dərəsində baş vermiş faciə ilə əlaqədar şəkili göstərir (kadrları) və şagirdlərdən xahiş edir ki, əhalinin təbii fəlakətlərdən, necə özlərini qorumaları barədə mülahizələrini söyləsinlər.<br>**Fəallıq 5.** Keçmişdə qarşılıqlı köməklər barədə mini mühazirə.<br>**Fəallıq 6.** Qiymətləndirmə<br>**Fəallıq 7.** Ev tapşırığı- fövqəladə hallar xidmətinə ekskursiya təşkil edin və bunun təqdimatını keçirin; "özgəsinə nə üçün kömək etməliyik?" mövzusunda ESSE yazsınlar. |
| **Qiymətləndirmə** | Cari tapşırıqların qiymətləndirmə rubrikası |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, proyektor (lazım gəldikdə) |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif |
| **Əvvəl qazanılmış bilik** | Təhlükəsizlik qaydaları və ətraf mühiti mühafizə öhdəlikləri barədə məlumatları vardı |

Dərsin başlanğıc mərhələsində müəllim şagirdlərdən xahiş edir ki, elə hadisələri yada salsınlar, harada ki, a. Başqalarına kömək etdilər, b. Nə zaman ki, onun özünə kömək göstərdilər c. Bu zaman onların qəlbində hansı hisslər oyandı. Bundan sonra təbii fəlakətlər barədə düşüncə xəritəsini doldururlar. Bu fəallığın məqsədi təbii fəlakətlər barədə şagirdlərin biliyini müəyyənləşdirmək – yoxlamaqdan ibarətdir. Dairənin mərkəzində təbii fəlakət sözü yazılır, onun ətrafında isə hər şey, hansı ki, bu söz ilə əlaqədardır. Şagirdlər müəllimin xahişi ilə öz mülahizələrini bildirirlər ki, təbii fəlakətlər ilə kömək bir-biri ilə hansı əlaqədədir (təbii fəlakətlər zamanı ən çox insanların bir-biriləri ilə münasibətləri formalaşır, yanında olmaq olmadan təbii fəlakətlə mübarizə çox mürəkkəbdir, problemləri birlikdə həll etmək asandır).

Şagirdlər paraqrafda verilmiş Vere dərəsində baş vermiş faciənin şəkilləri ilə tanış olurlar (yaxud da kadrları göstərək) və şagirdlərdən xahiş edin ki, bunun barəsində öz mülahizələrini söyləsinlər, əhali təbii fəlakət zamanı özünü necə müdafiə etməlidir. Şagirdlərə onun təhlilində kömək göstərməyi öz mülahizələrini söyləsinlər ki, resurslardan ağılla istifadə etmək, təbiəti qorumaq və ona ehtiyatla yanaşmaq hər bir vətəndaşın borcudur.

Mini mühazirə üçün qarşılıqlı kömək ənənələri barədə qədimdə mövcud olan faktlar haqqında paraqrafda mövcud olan məlumatdan istifadə edə bilərsiniz.

**Tövsiyə: tapşırıq 7, paraqraf 1.8**

Verilmiş tapşırığı təqdim edənədək şagirdlər müəllimin köməyi ilə torpağın azad sahələrini axtarıb tapsınlar. Şəhərin və ya kəndin planlaşdırılması xidməti ilə əməkdaşlıq etsinlər. Kömək üçün məktəb müdiriyyətinə ərizə ilə müraciət edə bilərlər. Şagirdləri ağac basdırmaq qaydaları ilə tanış edin.

Ağac və ya kol tingələrini **necə basdırmalıyıq.** İlk növbədə ərazinin landşaftını nəzərə alın. Çuxur qazılası yerləri payalarla dairəyə alın. Əvvəlcədən onun ətrafına xəbərdaredici ip bağlayın, orada bir calaqdan o birinə qədər məsafəni qeydə alın və qeyd edilmiş yerə payalar çalın. Sonra 60 sm dərinliyində çuxur qazın və 80 sm enində çuxurlar qazın. Hazırlanmış çuxurun dibini yaxşıca yumşaldın. Calağı kökün boğazınadək basdırın. Torpağı yaxşıca təpikləyin və su tökün.

## Əlavə məlumat

Rubrika – bu maraqlıdır

Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəmərlərinin tikintiləri əsrin miqyaslı layihələri idi. Kəmərlər tikilərkən Gürcüstan ərazisində iki yüzə qədər arxeoloji abidə aşkar edildi, alimlər bunları xilas etdilər və öyrəndilər.

**Msxeta** şəhər-muzey elan olunmuşdu və YUNESKO-nun dünya mədəni irs siyahısına daxil edilmişdir.

**Svetisxoveli** məbədi Msxeta şəhərində yerləşir. Rəvayətə əsasən, Msxetalı yəhudi Elioz çarmıxa çəkildikdən sonra onun tunikini (geyim) Msxetaya gətirmişdi. Onun bacısı, Sidonia tuniki ürəyinə basmış və vəfat etmişdi. Qadını tunik ilə birlikdə dəfn etmişlər və onun qəbri üzərində ağac bitmişdir. IV əsrdə bu yerdə kilsə tikmək qərara alınmışdı. Ağacı kəsmişlər və ondan yeddi sütun hazırlamışlar. Altı sütunu torpağa çalmışlar, yeddinci isə havada qalmışdır, yerindən heç cür tərpətmək mümkün olmamışdı. Sütun parlayırdı və xoşa gələn qoxu verirdi. Məhz bu “Svetitsxoveli”- müqəddəs sütun adı buradan götürülmüşdü. Ondan sonra məbəd “Svetisxoveli” adlandırılır. Tarixdən məlumdur ki, lap birinci tikilini Vaxtanq Qorqasali V əsrin ikinci yarısında bərpa etmişdir. XI əsrin əvvəlində katolikos Melkisedek memar Arsakidzeni dəvət etmişdir. Deyilənlərə görə, Arsakidzenin çox möhtəşəm məbəd tikməsinə baxmayaraq, onu yenə də cəzalandırmış və qolunu kəsmişlər. XIII əsrdə güclü zəlzələ məbədə xəsarət yetirmişdir, növbəti əsrdə məbədi yenidən bərpa etmişlər.

“Svetisxoveli” nəinki təkcə ruhani, eləcə də möhtəşəm maarif ocağı idi. Məbədin çox zəngin və rəngarəng kitabxanası var imiş. “Svetisxoveli” neçə-neçə çarın və katolikosun dəfn olunduqları məkandır. Onlar arasında Melkisedek katolikosun, çar Vaxtanq Qorqasalinin və II İraklinin qəbirləri vardır.

**Şio Mğvime monastırı.** VI əsrin ikinci yarısında assuriyalı keşiş – Şio yaratmışdır. Əfsanəyə əsasən, mağarada yıxılıb qalmış ruhaniyə qidaları göyərçinlər gətirirmişlər. Şio mağarada bulağın peyda olmasını da Şionun adı ilə əlaqələndirirlər. İlk zamanlar, suyu rahiblər adi qayda üzrə Kürdən daşıyırdılar. Bir dəfə rahiblərdən biri Kürdən su gətirən zaman qabı sındırmışdır və su dağılmışdır. Narahat olmuş rahib ağlamağa başlamışdır. Şio bunu görərkən rahibə demişdir- Ağlama, Allah səni eşitdi və sənin göz yaşlarının əvəzində orada bulaq yaratmağa qərar vermişdir. Bu bulağı Şio mağarasında bu gündə görmək olar, onu “Gözyaşı bulağı” adlandırırlar.

**Zedazeni monastr kompleksi** Saquramonun yaxınlığında, Zedazeni dağında yerləşir. Rəvayətə görə, “Zedazeni” adı məhsul və bərəkət büt allahlarının, Zadenin adı ilə əlaqələndirilir və “Zeda Zaden” deməkdir. Zadenin kultu gürcü mifologiyasının Allahı hesab olunur, hansına ki, xristianlığın yayılmasına qədər ibadət edirdilər. VI əsrdə assuriyalı keşişlərin öndəri İoane Zedazneli öz şagirdləri ilə birlikdə məhz Zedazeni dağında məskunlaşdı. Məhz İoane burada monastır yaratdı və özünü də Zedazneli

adlandırdı. Bir əfsanəyə əsasən, Zedazneli susuz yer imiş. Müqəddəs İoane Allahdan bulaq peyda etməsini xahiş edir və həqiqətən də, dağın zirvəsində müalicəvi əhəmiyyətə malik bulaq qaynamağa başlamışdır. Bulağa ayı adət edibmiş, Müqəddəs İoanenin duaları ilə bu yırtıcı heyvan əhliləşdirilmişdir. Sən demə ondan sonra, Zedazeni dağının vəhşi heyvanları insanlara hücum etmirlərmiş.

**Kotan** torpağı şumlayan alət idi, bu alət bir neçə ad ilə məşhurdur: gürcü kotanı, böyük kotan, böyük gürcü kotanı, ağac kotanı, babanın kotanı. Bütün bu növlər az-çox bir-birindən fərqlənir. Bu fərqlər ya onların konstruksiyasındadır, ya da materialında, hansılardan ki, bu kotanlar hazırlanmışdır. İş prinsipi isə onların hamısı üçün birdir. Kotanın ağac hissələri müxtəlif möhkəm sortlu ağacdan hazırlanırdı (palıd, göyrüş ağacı, qarağac). Bu gün Gürcüstana kənd təsərrüfatı texnikası idxalı qismində xüsusi polad ərintisindən hazırlanmış kotanlar gətirilir, bu kotanlar yüksək möhkəmliliyi ilə seçilir.

**Gürcü yaraq-yasaqları**

Döyüşçü-cəngavərin yaraq-yasaqları iki qrupa bölünür: özünümüdafiə və hücum silahı.

Özünümüdafiəyə daxildir: baş örtüyü, zəncir, zireh, qalxan və hücum silahları: zərbə endirilən, atılan, tuşlanan, odlu silahlar və s. Tarixi mənbələrin çox diqqətlə öyrənilməsi vasitəsi ilə müəyyən edilmişdir ki, gürcü döyüşçüləri dörd növ baş örtüyündən istifadə edirdilər: 1. Yüksək zirvəli dəbilqə, 2. Cəm formalı dəbilqə, 3. Kombinasiyalı baş örtüyü, 4. Zəncir toxumalı baş örtüyü.

Dəbilqə, müdafiə xarakterli baş örtüyü kimi, özünümüdafiənin başqa vasitələri ilə birlikdə lap qədim zamanlardan məlumdur. Onu ağacdan, Tozağacı qabığından, dəridən və sairədən hazırlayırdılar. Herodotun verdiyi məlumata görə, mosxlar, kolxlar, tibarenlər, makronlar, mosiniklər dəbilqəni ağacdan hazırlayırdılar. Ksenefontun məlumatına görə mosiniklər dəri dəbilqə örtürlərmiş. Strabonun verdiyi məlumata əsasən, İberialılar dəri dəbilqələrlə vuruşurdular. Trialetidə b.e.ə III əsrə aid olan bürünc dəbilqə tapılmışdır.

Gürcüstanda zəncir köynək geniş yayılmışdı, hansı ki, oval halqalardan tökülürdü. Onun ətəyi isə daha xırda halqalardan ibarət olurdu. Zəncir köynəyi adi paltarın üstündən geyinirdilər, bu köynəyin sinə yeri kəsilmiş olurdu və boğazın yanında düymələr tikilirdi.

Zəncirin hazırlanması prosesini keçmişdə zəncir "hörmək" yəni "tökmək" adlandırırdılar, hansını ki, qum ilə parladırdılar.

Gürcü döyüşçüsünün silah-əsləbəsini zəncirdən olan əl-ayaq – "sapuxre" tamamlayırdı, hansı ki, demək olar ki, bütün qolu örtürdü və yalnız barmaqların ucları müdafiəsiz qalırdı. Sol əldə "sapuxre" lazım gəlmirdi, çünki o elə də qalxan ilə müdafiə olunurdu.

Gürcü qalxanları əsasən dəyirmi formadadır. Hazırlanma texnikasına əsasən onları üç qrupa bölmək olar: 1. Dəri çəkilmiş ağac qalxan, 2. Metal ilə örtülmüş – döyülmüş dəri qalxan, 3. Soyuq döyülmüş metal qalxan

Uzun əsrlər boyu silah – əsləh gürcü geyiminin zəruri elementlərindən hesab olunurdu. Qılınc və xəncər ailə relikviyası hesab edilirdi və nəsildən-nəslə ötürülürdü. Gürcüstanda qılınc hakimiyyət rəmzi idi. Çar üçün və ya onun sərkərdələri üçün qılınc verilərkən özünə məxsus ritual, qayda icra olunurdu.

Gec feodal dövründə gürcü sənətkarları odlu silahlar hazırlanmaq texnikasına yiyələndilər. Tarix elə adlı sanlı ustaların adlarını bizə qoruyub saxlamışdır, hansılar ki, bu şəxslər bunlar idilər: Qudamağrelidən Papo və xevsur Samna. Bu axırıncını II İrakli şəxsən tanıyırdı.

**Rubrika – Bilirsinizmi ki:**

1082-ci ildə II Giorginin çarlığı dövründə güclü zəlzələ baş vermişdir, bu zaman Mesxeti-Cavaxetinin əhəmiyyətli hissəsi dağıntıya məruz qalmışdır. Tmoqvi şəhəri torpağın təkinə getmişdir.

1283-cü ildə Msxetada Svetisxovelinin kümbəzi uçmuşdur. Adzğuri məbədində, yalnız Məryəm ananın ikonası xilas olmuşdur.

1811-ci ildə zəlzələ Alaverdi məbədini uçurmuşdur.

1889-cu ildə Axalsıx zəlzələsi Axalkalakidə və Borjomidə bir çox tikililəri uçurmuşdur.

1920-ci il fevralın 20-də, gecə saat 3-də Qoridə baş vermiş zəlzələ 2-3 dəqiqə davam etmişdir. 1000 kvadrat kilometrdə onun gücü 10 bal idi. 1496 evdən 941 ev uçdu və ya olduqca zədələndi, 114 nəfər adam öldü, Tanisxidi, Skra, Otaraşeni, Xidistavi, Uplissixe və başqa kəndlər dağıldı.

1906-cı ilin avqust ayında Duruci çayı daşdı, nəhəng sel çox böyük material gətirdi və kəndin yarısı öz üzüm bağları ilə birlikdə daşlı-çınqıllı sahəyə çevrildi. Bir çox evlər dağıldı, yüzlərlə adam həlak oldu. Qvarelili tavadlar-Çavçavadzelər hökumətə müraciət etdilər, bir neçə min manat pul ala bildilər və ev-eşiksiz qalmış kəndlilərə payladılar. 1968-ci ildə Gürcüstan çaylarının mənbələrində normadan artıq iki dəfə çox qar yağdı. Aprel ayının əvvəlində temperatur hiss olunacaq dərəcədə artdı. Araverməyən yağışlar və qar sürətlə əriməyə başladı. Su xüsusi ilə Kür çayında artdı. Çay məcrasından çıxdı, calaları və sahilləri su basdı. Tbilisinin, Borjominin, Axalsixenin, Aspindzanın, Xaşurinin, Karelinin, Qorinin, Kaspinin, Msxetanın, Marneulinin və Qardabaninin rayonları əhəmiyyətli dərəcədə ziyana məruz qaldı.

**Rubrika – Bu maraqlıdır**

Meşənin ardı-arası kəsilmədən doğranılması xalq həyatı qaydalarına uyğun deyildi. Ağacın material üçün kəsilməsi yalnız yayda və payızda ola bilərdi. Odun üçün ağacı gec payızda, mebel üçün ağacı isə- payızın əvvəlində kəsərdilər. Təcrübə əsasında əhali müəyyən qaydalara ilin mövsümləri zamanı əməl edirdilər – Ayın fazalarına əsasən. Günlərə və tarixlərə də əhəmiyyət verilirdi. Məs.: bazar ertəsi və cümə günləri ağac kəsmək olmazdı. Cümə axşamı yaxşı gün hesab edilirdi. Yeni ay doğanda ağacı kəsmirdilər və bildirirdilər ki, “ağac böyüməkdədir və tez qurdlanar”. Bir qayda olaraq, ağac meşənin ortasında kəsilirdi. Meşənin kənarında, kəndin yaxınlığında meşənin doğranması yolverilməz idi.

**Kömürçülük –** Tbilisidə qədim peşələrdən biridir. Gürcüstanda əhalinin bir hissəsi istilik üçün əsas vasitə kimi kömürdən istifadə edirdi. Ona görə də bu peşə Tbilisidə və onun ətraf kəndlərində inkişaf etdi. Yerli əhali bu peşəyə tezcə yiyələndi. Sonra onlara Racadan və İmeretidən gəlmiş adamlar da qoşuldular. Meşələrin kömür üçün istifadə olunması, kömürlük yerlərin seçilməsi, kömürün keyfiyyətinin müəyyənləşdirilməsi, satış yerlərinin və qiymətlərinin qoyulması qaydaları yaradılmışdı. Kömür Tbilisidə ki, “Tatar meydanında”, “Malakan bazarında”, “Odun meydanında” satılırdı.

**Torpaq örtüklü evlər** əsasən Şərqi Gürcüstanın dağ və aranında yayılmışdı. Bu evlər torpaq örtükləri ilə – ban ilə örtülmüş evlərdən ibarət idi. Quruluşlarına görə iki tipə bölünür – taclı və yastı torpaq örtüklü. Torpaq örtüklü evin hər dörd tərəfindən müxtəlif təyinatlı təsərrüfat tikililəri – tövlə, samanlıq, təndirxana, şərab zirzəmisi ucaltmaq mümkün idi.

**Birtvisi qalası** Topal Teymurun bir neçə hücumuna sinə gəlmişdir. Birinci nəticəsiz döyüşdən sonra o öz nümayəndələrini qalanın ətraflarını və yollarını yaxşıca öyrənməyi həvalə etdi, özü isə yoluna davam etdi. 1403-cü ildə, səkkizinci yürüş zamanı Teymurləng yenə qalaya qayıtdı. Gürcülər qalanı yaxşıca möhkəmləndirmişdilər, qida ehtiyatı görmüşdürlər, su və şərab ehtiyatı yaratmışdılar. Bu zaman Brtvisi qalasının başçısı Nazali adlı bir şəxs idi. Ondan başqa qalada 30 gürcü tavad-aznauru var idi – öz ailələri ilə birlikdə və 150 nəfərlik əmələləri ilə birlikdə. Topal Teymur gələnədək monqollar bir neçə dəfə qalaya hücum etməyə cəhd göstərdilər, lakin heçnəyə nail ola bilmədilər. Qala müdafiəçiləri düşməni qıcıqlandırmaq üçün bəzən dağın başına çıxır, oradan düşmənlərin görməsi üçün kəl buynuzu ilə şərab içirdilər və çox həvəslə gürcü mahnıları oxuyurdular. Hirslənmiş Topal Teymur hücuma rəhbərliyi öz üzərinə götürdü: onun əmri ilə sərkərdə Şah Məlik alaqapının qarşısında 3 gün ərzində

elə bir istehkam qurdu ki, içərisində 3000 min nəfərədək döyüşçü yerləşə bilərdi, qalanın arxasında isə – iki istehkam qurdurdu. Bundan başqa, o hər tərəfdən atıcı və dağıdıcı maşınlar yerləşdirdi. Bu tədbirlərin görülməsinə baxmayaraq, düşmən yenə də istəyinə çata bilmədi. Bu zaman Teymurləng belə bir üsula əl atdı: o, öz qoşunundan döyüşçülər seçdi, bu döyüşçülər qayalıqda sürünə bilirdilər və onlar Birtvisi qalasının Cənub daşlı hissəsində yuxarı dırmanmağı əmr etdi. Qalanın bu hissəsi o qədər əl çatmaz idi ki, gürcülərin bu tərəfdə müdafiəçiləri yox idi. 50 nəfər döyüşçü pambıq və ipəkdən hazırlanmış kəndirlərdən nərdivan hazırladırlar, hansı ki, Teymurləngin əmri ilə qalaya qalxarkən yüksək dağın zirvəsində möhkəmlənməli idilər. O biri gün səhər tezdən isə qalaya çatmalı və alaqapıya hücum etməli idilər. Orada döyüşçülər iki yerə bölündülər və onlardan bir hissəsi ki, alaqapının açılmasına cəhd göstərməli idilər, o biri hissə dairəvi şəkildə toplaşmalı və gürcülərdən müdafiə olunmalı idilər. Bu tapşırığı döyüşçülər yaxşı yerinə yetirdilər. Bütün gecə-gündüz ərzində düşmən gürcülərə istirahət vermirdi. Sonra Teymurləngin əmri ilə daşların atılmasına ara verildi. Yorulub usanmış gürcülərə istirahət etmək və yatmaq imkanı verildi. Düşmənə də elə bu lazım idi. Qaranlıq düşdü və Teymurləngin sərkərdəsi yuxarı dırmaşmaqla oraya bir-bir döyüşçü göndərməyə başladı. Səhərədək qalaya 33 döyüşçü girə bildi. Onlar alaqapıya doğru yönəldilər. Doğrudur, gürcü qala müdafiəçiləri onları həmin andaca qılıncla qarşılayırdılar, lakin bu dəfə düşmənin hücumun qarşısını almaq o qədərdə asan olmadı. Qalanın daxilində bu hadisələr baş verən zaman, onun alaqapısı qarşısında düşmənin seçmə ordusu xaricdən də hücuma başladı. Qalan qoşunu Teymurləng Birtvisi qalasının ətrafındakı dağların yamaclarında və zirvələrində yerləşdirmişdi və “qala müdafiəçilərinin ruhlarının dözümünün və ətlərinin gücünü almaq üçün” öz döyüş bacarıqlarını nümayiş etdirirdilər. Teymurləngin özü Birtvisi qalasının qarşısındakı dağın yamaclarında durmuşdu və qalada gedən döyüşə oradan diqqət yetirirdi. Düşmənin sayca çoxluğu öz işini gördü və gürcülərin müqavimətini qırdı. Yaralanmış – haldan düşmüş və sağ qalmış qala müdafiəçilərini topladılar və Teymurləngə təqdim etdilər. Onların arasında Birtvisi qalasının və onun ətrafındakı yerlərin sahibi Toreli də var idi. Teymurləng ona həyatını xilas etmək bahasına islamı qəbul etməyi məsləhət gördü, lakin bu təklifə soyuq rədd cavabı aldı. Bundan sonra onların hamısını əzab işgəncə ilə öldürdülər. Birtvisi qalasının müqaviməti ölkənin o zaman ki vəziyyətində böyük rol oynadı. Gürcülərin mərdlik, rəşadətli müqaviməti Teymurləngin saysız-hesabsız qoşununu ən azı bir ay qala qapısı qarşısında saxlaya bildi.

Birtvisi qalasının sonrakı tarixindən, salnamələrin vərəqlərindən bizə gəlib çatmış hadisələrdən maraqlı hadisə odur ki, 1541-ci ildə Şah Təhmasibin hücumudur. Cənubi Gürcüstanda, o əli çatan hər şeyi yandırıb külə döndərmişdi, heç nəyi salamat qoymamışdı. Bütün diyarda yalnız Birtvisi qalası toxunulmaz qaldı. Yaxşı silahlanmış düşmənin çoxsaylı qoşunu ona da yaxınlaşdı, lakin qalaya heç nə edə bilmədiyindən, şah qala müdafiəçilərinə toxunmayacağıcı vəd etdi və təslim olacaqları təqdirdə onları əfv edəcəyini bildirdi. O, belə bir üsulla qalanı ələ keçirə bildi.

İrana qarşı Giorgi Saakadzenin döyüşünün bir anı da Birtvisi ilə əlaqədardır. Bu diyarın və Birtvisi qalasının sahibi Key Xosrov Barataşvili İranlıların tərəfində idi. O qalanın qarnizonunu yeni gətirilmiş 500 nəfər qızılbaş döyüşçüsü ilə artırdı. Elə ki, Saakadze bu hadisəni eşitdi, belə bir üsula əl atdı: sübh çağı Tbisi kəndində Barataşvilinin iqamətgahına hücum etdi və Key Xosrovun özünü və onun qardaşı Xosianı ələ keçirdi. Sahibləri ələ keçdikdən sonra qalanı da asanca ələ aldı. O xəyanətkar tavadları məcbur etdi ki, İran qoşununu qaladan özləri çıxarsınlar. Gürcülər bütün beş yüz nəfər qızılbaş döyüşçüsünü məhv etdilər.

Daha bir maraqlı məlumat, hansı ki, XVIII əsrin 40-cı illərinin axırına aiddir: Şahzadə Abdulla bəy Çar İraklinin yanına gəldi. Barataşvililər onun tərəfini saxlayırdılar. Çar İrakli qoşun ilə Sabaratianoya yaxınlaşdı – onları döyüşsüz barışdırmaq istəyirdi. Birtvisidə möhkəmlənmiş Barataşvililərə vasitəçilər göndərdi: onları əfv edəcəyini bildirdi, lakin heçnəyə nail ola bilmədi. Samşvildedə möhkəmlənmiş adamları da barışdırmağı bacarmadı. Bu zaman çar onların qida mənbəyini məhv etməyi qərara aldı. Payız ağzı idi, qoşun hücuma keçdi və Samşvilde və Birtvisinin ətraflarındakı zəmiləri biçdirdi.

Baratianililər qaladan çıxdılar, əlbəyaxa müharibə baş verdi. Çar onlara üstün gəldi və qalaya qədər təqib etdi. Sonra isə salnaməçi Lakonik olaraq yazır: "əgər Birtvisi qalası müharibəsi olmasaydı, boşaldılar, mövcud olan bütün tikililəri məhv etdilər". Bu məlumatda ən maraqlı budur ki, müəllif tamamilə inandırıcı şəkildə bildirir: Birtvisi qalası döyüşlə alına bilməzdi!"

**Rubrika- tarixd**ə ş**ə**xsiyyət

Solomon Kurdiani – gürcü meşəbəyi – seleksiyaçısı. Gürcü universitetinin ilk professorlarından biri. 1920-ci ildə onun təşəbbüsü ilə "Meşə günü" müəyyən edildi. Onun rəhbərliyi altında meşələrin tam qeydə alınması keçirildi. Meşənin plansız doğranmasına qarşı mübarizə aparırdı. Meşənin xilas edilməsi üçün kütləvi tənqidi çıxışları ona həyatı bahasına başa gəldi. 1937-ci ildə həbs etdilər və güllələdilər. Onun qəbri bu gündə naməlumdur.

## FƏSIL 2. İMERETI

| Dərsin mövzusu | 2.4. İmeretidə mədəniyyət abidələri |
|---|---|
| **Dərsin məqsədi** | Şagird İmeretidə mövcud olan mədəniyyət abidələri ilə tanış olur, tarixdə onların əhəmiyyətini təhlil edir və onlara ehtiyatla yanaşmaq zəruriyyəti barədə mülahizə yürüdür. |
| **MTP uyğunlaşma** | (II) 2 (II) 7 (II) 8 (II) 9 (II) 10 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** İmeretidə mövcud olan mədəniyyət abidələri barədə mini mühazirə. (5 dəq)<br>**Fəallıq 2.** Mədəniyyət abidələrinin illüstrasiyaları ilə tanış olurlar, mətn əsasında cütlüklər ilə məlumatı işləyirlər və cədvəli doldururlar. (20 dəq)<br>**Fəallıq 3.** Mülahizə yürüdürlər, mədəniyyət abidələrinə ehtiyatla yanaşmağın nəyə görə zəruri olduğunu əks etdirirlər. Baqrat məbədinin nümunəsində əsaslandırsınlar ki, abidələrin müasir materiallardan və konstruksiyalardan istifadə etməklə yenidən qurulması nə dərəcədə özünü doğruldur. (15 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə<br>**Fəallıq 5.** Ev tapşırığı – İmeretinin mədəni irs abidələri barədə məlumat toplasınlar, slayd şou hazırlasınlar və sinfə təqdim etsinlər. |
| **Qiymətləndirmə** | Cari tapşırıqların qiymətləndirməsi meyarları |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, əlavə illüstrasiyalar |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, Cütlüklərlə |
| **Əvvəl qazanılmış bilik** | İmeretinin təbii və sosial-mədəni xüsusiyyətləri |

**Mini illüstrasiya üçün material**

Gelati məbədi orta əsrlərin gürcü memarlığının əhəmiyyətli abidəsidir. Dzğalsitela dərəsində tikilmişdir. Monastırın hasarının cənub girişində David Ağmaşenebelinin (Qurucu David) qəbridir. Gelati nəyinki təkcə ruhani, eləcə də mədəni-maarif mərkəzi də idi.

Müqəddəs Giorginin adına tikilmiş Xaraqauli bələdiyyəsində yerləşən, IX əsrdə mövcud olan Ubisi monastırı böyük gürcü xadimi Qriqol Xantelinin adı ilə bağlıdır.

İmeretililərin çarı II Solomon uşaqlıq illərini VII- VIII əsrlərdə tikilmiş Tabakoni məbədində keçirmişdir.

Modzameta- gözəl monastır kompleksidir. Məbəd Arqveti eristavları David və Konstantine Mixeidzelərin adına tikilmişdir, hansılar ki, ərəb istilaları zamanı işgəncələrlə həyata göz yummuşlar. Monastırın ərazisində hər il xalq bayramı – Modzametaoba keçirilir.

Baqrat Məryəm Ananın yatması məbədi İmeretinin və bütövlükdə Gürcüstanın yaraşığıdır. O X-XI əsrlərlə tarixlənir 1994-cü ildə YUNESKO-nun Dünya Mədəni İrs Abidələri siyahısına daxil edilmişdir. Təbiətin nadir incisi, Katsxi sütunu Çiatura bələdiyyəsində yerləşir. Hazırda orada rahiblər fəaliyyət göstərirlər.

Saçxere ərazisində yerləşən Cruci monastırı da eləcə, necə ki, Nunisi Məryəm Ana monastırı, hansı ki, Xaraqauli bələdiyyəsində yerləşir, Çox gözəl Nunisi kurortundadır, bunlar qeyd olunmağa layiqdir.

Şagirdlər mətn üzərində işləyirlər, mədəniyyət abidələrinin illüstrasiyaları ilə tanış olurlar və cədvəli doldururlar.

| Abidənin adı | Tikildiyi vaxt | Bu abidənin əlaqədar olduğu tarixi şəxsiyyət |
|---|---|---|
| | | |

Şagirdlər mədəniyyət abidələrinə ehtiyatla yanaşmaq barədə mülahizə yürüdənədək, onlara Baqrat məbədinin yenidən qurulması ilə bağlı məlumat verə bilərsiniz. Məlum olduğu kimi, Baqrat məbədinin yenidən qurulması layihəsi, hansı ki, 2009-cu ildə başlanmışdır, İctimaiyyətin bir-birinə uyğun gəlməyən və kəskin reaksiyasına səbəb olmuşdur. Məbəd, hansı ki, Dünya mədəni İrs abidələri nüsxəsinə daxil edilmişdi, 2010-cu ildə YUNESKO-nun qərarı ilə təhlükə altında olan abidələr siyahısına düşdü. Bunun səbəbi isə məbəddə başlanan yenidən qurma işləri göstərildi, hansı ki, tikilinin mötəbərliyini və bütövlüyünü pozurdu.

| Dərsin mövzusu | 2.6. İmeretinin şəhərləri |
|---|---|
| Dərsin məqsədi | Şagird İmeretidə mövcud olan şəhərlərlə, onların mövcudluğu tarixi ilə tanış olur və onların necə və nəyə görə bu regionu dəyişdiyini təhlil edir. |
| MTP ilə uyğunlaşma | (II) 2 (II) 3 (II) 9 |
| Dərsin gedişatı | **Fəallıq 1.** Müəllim yazı taxtasında İmereti şəhərlərinin adlarını yazır: Kutaisi, Zestafoni, Sxaltubo, Çiatura, Tkibuli, Saçxere, Xaraqauli, Xoni, Vani və şagirdlərdən xahiş edir ki, bu şəhərləri nəyin birləşdirdiyini söyləsinlər. (ehtimal olunan cavab- bütün bu şəhərlər İmereti regionundadır). (3 dəq)<br>**Fəallıq 2.** Şagirdlərin bir hissəsi mətnin o hissəsi üzərində işləyir, hansında ki, söhbət Çiatura şəhəri barədə gedir, ikinci hissəsi isə Kutaisi haqqında informasiya üzərində yerləşir. (10 dəq)<br>**Fəallıq 3.** Şagirdlər cədvəli doldururlar (bax, cədvəl) və sinfə təqdim edirlər. (10 dəq)<br>**Fəallıq 4.** Müəllim Kutaisidə yaşayan katoliklərin barəsində əlavə məlumat verir. Şagirdlər katoliklərin məşğuliyyətini qiymətləndirirlər. (10 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə<br>Ev tapşırığı. İmereti regionunun şəhərləri barədə, onların inkişafının perspektivləri haqqında məlumat toplasınlar. |
| Qiymətləndirmə | Cari tapşırıqların qiymətləndirməsi rubrikası |
| Sinfin idarəedilməsi | Ümumi sinif |
| Resurslar | Dərslik, yazı taxtası, tabaşir, əlavə material |
| Əvvəl qazanılmış bilik | İmeretinin təbii şəraitləri və coğrafi xüsusiyyətləri |

Üçüncü Fəallıq üçün cədvəl

| Şəhərin adı | Yaradılma vaxtı | Hansı çayın sahilində tikilmişdir | Əlavə informasiya |
|---|---|---|---|
| **Ciatura** | XX əsrin başlanğıcı | Qvirila çayı | Çiaturanın mövcud olması barədə əfsanə |
| **Kutaisi** | 3500 il bundan əvvəl | Rioni çayı | Rəngarəng şəhər |

Kutaisidə yaşayan katoliklər barədə əlavə məlumat

İmeretidə müalicəvi işin yayılması və onların sonralar inkişaf etdirilməsi, Aptek işinin dirçəldilməsi və kiçik müəssisələrin, fabriklərin yaradılması və xarici ölkələr ilə münasibətlərinin inkişafı katolik missionerlərin və gürcü katoliklərinin xidmətlərindən biri hesab olunmalıdır. Onlar həmçinin mədəni və ictimai həyatda yaxşı görünürdülər.

XIX-XX əsrin qovşağında İosif İvanoviç Otsxeli Kutaisidə məşhur şəxsiyyətlərdən idi. 1892-ci ildə o, Kutaisidə uşaq bağçası yaratdı, hansı ki, 1903-cü ilə qədər mövcud idi. İosif Otsxeli gürcülər arasında yazı-oxumaq yayan cəmiyyətin Kutaisi şöbəsinin sədri idi. Başqaları ilə birlikdə Kutaisidə “Qanatleba” və “Şkola” nəşriyyatlarının mövcud olması onun əməyinin bəhrəsi idi.

Nuqzar Kvaraçxelia, Kutaisili katoliklər XIX əsrdə.

## Əlavə məlumat

**Rubrika – Bu maraqlıdır**

**Sataplia qoruğunda** yerləşən nəhəng mağaranı kiçik çay yaratmışdır. Mağarının iki çıxışı vardır. Qışın sonunda, nə zaman ki, mağaranın şimal tərəfində hələ yenə də qar olur, cənub hissəsi müxtəlif rəngli güllərlə örtülür. Buranı gəzməyə gələnlər cəmi haradasa 30-35 dəqiqədə qışdan yaza keçə bilərlər. Qoruqda çöl arıları məskunlaşmışdır, elə buna görə də o yeri "Sataplia" (Tapli gürcücə bal) adlandırmışlar.

Sataplia bununla da maraqlıdır ki, bu bütün dünyada yeganə yerdir ki, burada bir-birinin yanında yırtıcı və ot yeyən dinozavrların 200-dək izi həkk olunmuşdur. Tədqiqatlarla müəyyən edilmişdir ki 120 milyon il bundan əvvəl bu yerlərdə 7 müxtəlif növ 25 dinozavr keçmişdir. Otyeyənlərin hündürlüyü 6 metr, çəkisi isə 30 ton olmuşdur.

**İmeretidə, Nunusi kəndində** "Samta Nunusi" kurortu yerləşir, bu kurort dəniz səviyyəsindən 750 metr yüksəklikdədir. Oradakı iqlimin unikallığını o şərtləndirir ki, burada qatışıq, iynəyarpaqlı və enliyarpaqlı meşələr mövcuddur. Zvare kurortu Zvarula çayının sahilində yerləşir, burada həmin adı daşıyan mineral su özünün keyfiyyəti ilə məşhurdur.

**Vani xəzinəsi**

Yüz ildən çoxdur ki, Vani ərazisində arxeoloji qazıntılar aparılır, bunun nəticəsində neçə-neçə qiymətli əşya tapılmışdır. Onların əksəriyyəti e.ə VIII-I əsrlərlə tarixlənir. Təkcə 2003-2004-cü illərdə aşkar edilmiş qəbirlərdə 1000-dən çox qızıl əşya tapılmışdır. Qazıntılar bu gündə davam etdirilir. Burada aşkar edilmiş nadir materialı görmək Vani arxeoloji muzeyində və Gürcüstan dövlət muzeyində mümkündür.

2007-ci ildə muzeydə mühafizə olunan materialdan 83 adda nadir qədim zərgərlik nümunəsi seçilmiş və Berlin dövlət muzeyində sərgilənmişdir.

**Baqrat məbədi**

Baqrat məbədi gürcü memarlıq tarixində öz memarlıq və rəssamlıq dəyəri ilə xüsusi seçilən yer tutur, bu məbəd orta əsrlərdə inkişaf etmiş olan dövrün memarlıq üslubunun son yekunlaşdırıcı tikililərindən biridir. Tarixən isə o, birləşmiş Gürcüstanın rəmzidir. Baqrat məbədini YUNESKO 1994-cü ildə Dünya Mədəni İrs Abidələri siyahısına daxil etmişdir.

2009-cu ildə Gürcüstan hökuməti abidənin bərpasına başlamışdır ki, bu da abidə də kümbəzin tikilməsi ilə başa çatdırılmalı idi. Layihə ictimaiyyətdə bir-birinə zidd olan və kəskin reaksiyaya səbəb oldu. Mütəxəssislərin bir qismi belə hesab edirdi ki, məbəddə aparılan işlər abidənin mötəbərliyini pozur, tamamilə qeyri ənənəvi dəmir-beton tikilisi ucaldılırdı. Mütəxəssislərin bir qismi bu fikirlə razılaşmırdı. Onlar belə fikirləşirdilər ki, məbədin möhkəmləndirilməsi və onun üzərində kümbəzin qoyulması bu cür konstruksiyalar olmadan mümkün deyildi. Mütəxəssislərin birinci hissəsinin düşüncəsi təsdiq olundu və mötəbərliyinin pozulmasına görə Baqrat məbədi YUNESKO-nun Dünya mədəni irs abidələri siyahısından çıxarılmışdır.

# FƏSIL 3. SAMEQRELO

| Dərsin mövzusu | 3.2. Sameqrelo keçmişdə və indi |
|---|---|
| Dərsin məqsədi | Şagird Kolxeti çarlığı barədə məlumat ilə tanış olur.<br>Şagird mif ilə reallıq arasında fərqi öyrənir. |
| MTP uyğunlaşma | (II) 1 (II) 12 (II) 14 |
| Dərsin gedişatı | **Fəallıq 1.** Əqli xəritə: arqonavtların mifi barəsində nə bilirik (2 dəq)<br>**Fəallıq 2.** Kolxeti çarlığı barədə mini mühazirə (5 dəq)<br>**Fəallıq 3.** Arqonavtların mifindən bir hissə ilə və Tim Severenin səyahəti barədə məlumatla tanış olurlar. Yazılı şəkildə sualla cavab verirlər: Arqonavtların səyahəti mif idi, yoxsa reallıq. (10 dəq)<br>**Fəallıq 4.** Yazılı tapşırığın təqdimatı. (8 dəq)<br>**Fəallıq 5.** Mövzu üzrə diskussiya: ölkə üçün bolluq dua etməyə layiqdir yoxsa qarğışa. (10 dəq)<br>**Fəallıq 6.** Ev tapşırığı- Vani arxeoloji qazıntıları barədə məlumat toplasınlar (bax, elektron resursların adları).<br>**Fəallıq 7.** Qiymətləndirmə (2 dəq) |
| Qiymətləndirmə | Ümumi sinif, fərdi. |
| Resurslar | Dərslik, yazı taxtası, tabaşir |
| Sinfin idarəedilməsi | Cari tapşırığın qiymətləndirilməsi meyarları |
| Əvvəl qazanılmış bilik | Sameqrelonun təbii və sosial-iqtisadi xüsusiyyətləri |

Dərs düşüncə xəritəsinin doldurulması ilə başlanır: arqonavtlar barədə nə bilirik. Şagirdlər arqonavtlar haqqında mif ilə əlali olan sözü,yeri və adı sadalayırlar (Kolxeti, yunanlar, Arqo, Medea, Yasson, qızıl yun, Ayet).

Arqonavtların mifindən bir hissə ilə və Tim Severinin səyahəti barədə məlumat ilə tanış olsunlar. Bu suala yazılı şəkildə cavab versinlər: Arqonavtların səyahəti mifdir, yoxsa reallıq. Yerləri qeyd etsinlər, hansılar ki, onun dediklərini təsdiq edəcəklər.

**Kolxeti çarlığı barədə mini mühazirə:** Kolxeti çarlığı Qara dənizin şərq sahilində yerləşirdi. Qədim yunan mənbələrinə əsasən, çarlığı Ayetin nəsilləri, yəni Ayetlər idarə edirdilər. Skiflərin və ximerlərin hücumlarından zəiflədikdən sonra, Kolxeti çarlığı müstəqilliyini yenidən bərpa etdi. Onun sərhədləri bu dəfə bütün Qərbi Gürcüstanı əhatə edirdi. Kolxeti iqtisadi cəhətdən güclü ölkə idi. Orada gümüş pul kəsilirdi. Kolxeti hətta sikkə mədəniyyətinin ocaqlarından biri idi. “Kolxeti tetrisi”dən başqa, burada qonşu ölkələrin- Sinepuri, Afina, Əhəmənilər sikkələri də geniş dövriyyədə idi. Kolxetidə qızıl metallurgiyası inkişaf etmişdi. Vani xarabalıqlarında böyük miqdarda Kolxeti qızıl əşyaları tapılmışdı, hansı ki, Kolxetinin əsas iqtisadi və dini mərkəzlərindən biri idi.

Belə bir fikir mövcuddur ki, zənginlik ölkə üçün xeyir-duadır, bəzilərinin fikrincə isə – qarğış. Qeyd olunan mövzuda diskussiya keçirsinlər (ehtimal olunan arqumentlər: ölkənin çoxlu düşmənləri olacaqdır, hansı ki, bu zənginliyi və yaxud var dövləti ələ keçirməyə çalışacaqdır və yaxud bu zənginlik ölkənin inkişafına kömək göstərəcəkdir).

| Dərsin mövzusu | 3.7. Sameqrelo – Gürcüstanın azadlıq və birliyinin müdafiəçisi |
|---|---|
| **Dərsin məqsədi** | Şagird Gürcüstanın monqol ağalığı dövrünün faktları və hadisələri ilə tanış olur<br>Şagird şəxsiyyətin tarixdə rolunu təhlil edir |
| **MTP uyğunlaşma** | (II) 1 (II) 12 (II) 14 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Gürcüstanda monqol ağalığı barədə mini mühazirə (5 dəq)<br>**Fəallıq 2.** Mətnin təhlili. Şagirdlər Sotne Dadianinin qəhrəmanlığı barədə informasiya ilə tanış olurlar. (5 dəq)<br>**Fəallıq 3.** Bu mövzuda inşa yazırlar: tarixi şəxsiyyətin rolu. (15 dəq)<br>**Fəallıq 4.** Yazılı tapşırığın təqdimatı. (10 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə (5 dəq)<br>**Fəallıq 6.** Ev tapşırığı – Gürcüstanın tarixinə əhəmiyyətli hədiyyə bəxş etmiş tarixi şəxsiyyətlər barədə məlumat toplasınlar |
| **Qiymətləndirmə** | Ümumi sinif |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir |
| **Sinfin idarəedilməsi** | Tarixi inşanın qiymətləndirilmə meyarları |
| **Əvvəl qazanılmış bilik** | Sameqrelonun keçmişi və müasir vəziyyəti barədə məlumat. |

**Gürcüstanda monqol ağalığı barədə mini mühazirə**

Tatar-monqollar Gürcüstanda ilk dəfə 1220-ci ildə göründülər. Bu Çingiz-xanın tərəfindən işğal olunmuş ərazilərin kəşfiyyatı məqsədi ilə göndərilmiş qoşun idi. Gürcüstana monqollar Azərbaycandan keçərək gəlmişdilər. Onlar elə birinci qarşılaşmada qələbə qazandılar. Cavab olaraq, Laşa-Giorgi böyük qoşun yığdı, lakin əsas döyüşdə bu dəfə də məğlub oldu. Qələbə qazandıqlarına baxmayaraq, monqollar Gürcüstanı tərk etdilər və Şimali Qafqaza keçdilər. 1235-ci ildə monqolların ordusu ölkəyə artıq işğalçılıq məqsədi ilə ayaq basdı. Rusudan Qərbi Gürcüstana keçdi, Şərqi Gürcüstanın zənginləri isə monqollarla razılaşmağı və döyüşsüz təslim olmağı seçdilər. Rusudan düşmən ilə müqavilə imzalamağa məcbur oldu. Monqollar Gürcüstanda çarlığı ləğv etmədilər, lakin çarlıq taxtının varisini onlar təsdiq etməli idilər. Rusudanın ölümündən sonra, yeni çarın təsdiq olunmasınadək, monqollar ölkənin inzibati quruluşunu və idarəçiliyini özlərinin qaydalarına əsasən təsdiq etdilər ki, bu da hərbi hakimiyyətin ağalığı demək idi. Gürcü dövlətçiliyinə təhlükə yarandı. Gürcü zadəganları vəziyyətin dəyişdirilməsinə çalışdılar, lakin sui-qəsdin üstü açıldı və monqollar onun qarşısını ala bildilər.

**Mətnin təhlili –** Sotne Dadianinin qəhrəmanlığı barədə məlumat ilə tanış olurlar, Gürcüstan üçün onun əhəmiyyətini təhlil edirlər və bu mövzuda inşa yazırlar: Tarixi şəxsiyyətin rolu. Bu tarixi şəxsiyyət barədə öz görüşlərini qiymətləndirir və formalaşdırırlar.

## Əlavə məlumat (fəsil 3. Sameqrelo)

**Kolxeti Milli Parkı** Qara dənizin şərq sahil zolağını və Kolxeti ovalığında yerləşmiş yüksək rütubətli əraziləri əhatə edir. Bu ərazilərin Yer kürəsində biorəngarəngliyin qorunub saxlanılmasında böyük əhəmiyyəti vardır. Bundan başqa, Kolxida Milli Parkının xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, köçəri quşlar Avrasiya və Afrika arasında uçarkən məhz burada istirahət yeri tapırlar. Çox sayda quş burada bütün il boyu və yaxud mövsüm ərzində məskunlaşır. Kolxeti Milli Parkının tərkibində mövcud olan Qara dəniz sahil zolağı mühafizə olunan ərazi statusunu dənizdə yayılmış 3 növ delfin və qızılbalıq cinsli balıq növünü mühafizə etmək məqsədi ilə verilmişdir.

**Uzun əsrlər boyu meşə ilə zəngin olan mühitdə** yaşamaq və böyük əmək təcrübəsi qədim kolxları "ağac işində" ustadlaşdırdı. Qərbi Gürcüstanın xalq memarlığı bütünlüklə, ağac memarlığı incəsənətini təmsil edirdi.

Uzaq keçmişdən bu günədək Qərbi Gürcüstanın kənd əhalisi ağacdan tikilmiş evə üstünlük verirdi. Yağışlı və rütubətli diyarda məişət nöqteyi-nəzərindən ağac evlər kərpicdən tikilmiş evlərdən də üstündür. O nadir hallarda nəmişlənir və əgər nəmişləndisə, tezliklə də küləklənir və quruyur. Ağacın bu xüsusiyyətini qədim kolxlar da yaxşı bilirdilər və ancaq inşaat daşlarından da kifayət qədər istifadə edirdilər, yaşayış evlərinin tikilməsində dağlıq Kolxetidə də ağacdan ev tikməyə üstünlük verirdilər. Bu barədə yunan-roma müəllifləri neçə-neçə məlumat saxlamışlar. Ksenefont (b.e.ə. V ə) Cənub-Qərbi Gürcüstana hücum zamanı ağac tirləri ilə əhatə olunmuş şəhərləri və kəndləri görmüşdür, harada ki, onun yazdığına görə "çox saylı və yaraşıqlı evlərdə" və "ağacdan tikilmiş istehkamlarda" yerli əhali yaşayırdı.

Qədim Kolxetinin ərazisində aparılan arxeoloji qazıntılar klassik yazıların məlumatlarını təsdiq edirlər. 1933-cü ildə, Reka kəndində, Kveloni stansiyası yaxınlığında, (Senaki rayonu) böyük kurqan "naoxvamu" aşkar edildi, onun ərazisində aparılan qazıntı zamanı dörd metr dərinlikdə tirlərdən tikilmiş ev tipli ağac tikilisi aşkar edildi və bu tikilinin çuxurları şabalıd və fındıq qabıqları ilə, eləcə də darı qabıqları ilə dolu idi, donuz sümükləri və başqa məhsulların qalıqları hər tərəfə səpələnmişdi. B.e. birinci əsrdə fəaliyyət göstərmiş Roma memarı Mark Vitruvius özünün on kitabda yazılmış əsərində- memarlıq barədə traktat"da bir kolx yaşayış evinin qısa təsvirini vermişdir. Meşənin bolluğuna görə, o yazır, yerli əhali bütün qüvvə ilə evlər tikir. Tirləri dörd bucaq şəkilində qururlar, sonra onların ucunda bir-birinin üstünə tirləri elə düzürlər ki, onların artırılması ilə tikintinin həcmi möhkəmlənsin. Sonra tirlərin bir-birinə calaşdırılması ilə bünövrənin künclərini bağlayırlar və yenidən tirlərin bir-birinə əvəz etməsi ilə divar ucaldırlar. Divarlarda, tirlər arasında qalmış deşikləri – boşluğu yonqarlarla doldururdular və sonra gil ilə suvayırdılar. Həmin qayda ilə örtüyü də tamamlayırdılar, yalnız bir fərqlə ki, onun tirləri get-gedə qısalırdı və buna müvafiq olaraq dam örtüyü də hər dörd tərəfdən mərkəzdə cəmləşirdi. Kolxlar köşkləri də bu qayda ilə tikirlər – deyə Vitruvius yazır, lakin o barədə heç nə yazmır ki, bu evlər daxildən necə abadlaşdırılırdı.

Missionerlər Arkancelo Lamberti və Xristofer Kastel, hansılar ki, rəssamlıqla da məşğul olurdular, Qərbi Gürcüstan üçün xarakterik olan evlərin çertyojunu da bizlərə hədiyyə etmişlər. Bu çertyojlar gürcü xalq maddi mədəniyyət tarixinin öyrənilməsi işində xüsusi əhəmiyyəti vardır, çünki qərbi Gürcüstanda ənənəvi yayılmış tikililərin ilk qrafik əksləridir.

**Rubrika – Tarixi şəxsiyyət**

Gürcüstanın birləşmiş çarlıq epoxasından başlamış Qərbi Gürcüstanın II Levan Dadianidən güclü hökmdarı olmamışdır. Onun atası Manüçöhr Dadiani Odişi (sonradan Sameqrelo) çarlığını idarə edirdi. Onun anası Nestan-Darecan Baqrationi Şərqi Gürcüstanda Kartli Kaxeti çarı II Aleksandrın qızı idi, hansı ki, doğuş zamanı həyatını itirmişdir. Levan uşaqlığını anasının malikanəsində keçirmişdir. 1611-ci ildə, ov zamanı, onun atası bədbəxt hadisənin qurbanı oldu və 14 yaşlı Levan Odişi başçısının vəzifəsini yerinə yetirməli oldu. Bu vəzifəni o ölənədək, yəni 46 il ərzində tutmuş oldu. Levan Dadiani Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqə yaratmaq üçün var-qüvvəsini əsirgəmirdi və bu məqsədlə katolik kilsəsi ilə əlaqə yaratmağa cəhd göstərdi. 1626-cı ildə Roma emissarları hədiyyələrlə və məktublarla

Gürcüstana gəldilər, hansıları ki, Kartli-Kaxeti, İmereti, Odişi və Quriya knyazlarına Papa VIII Urban göndərmişdi. Papanın elçiləri Levanda böyük təəssürat yaratdılar. Onlar nəinki təkcə ümumi təhsil ilə seçilirdilər, hətta belə elə sahələrdə də seçilirdilər ki, bunlar tibdən, mühəndis işindən, coğrafiyadan və astronomiyadan ibarət idi, son dərəcə kompetentli insanlar kimi özlərini göstərdilər. Onun üçün qonaqlar nəinki təkcə siyasi müttəfiqlər kimi təqdim olunurdular, əksinə həm də ona güc verirdilər, hansı ki, Odişinin modernizasiyasına və geri qalmış iqtisadi inkişafına kömək göstərə bilən müttəfiqlər idilər.

Qərb ilə qarşılıqlı iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün Levan ambisiyalı plan işləyib hazırladı, hansı ki, Odişinin infrastrukturunun inkişafını, ipək istehsalının çiçəklənməsini və xüsusi ticarət şəhərinin tikilməsini nəzərdə tuturdu. Bu ticarət mərkəzi Odişidən keçərək Şərq və Qərbi birləşdirəcəkdir. Levan həmçinin sikkəxana tikilməsini əmr etdi ki, planının maliyyələşdirilməsi üçün pul kəsiləydi.

O zamanlar yaxın və uzaq Şərqdən gələn mal Avropaya iki əsas yol ilə gedib çatırdı: dənizlə (aralıq dənizindən keçməklə) və quru yolla (Osmanlı imperiyasının ərazisindən keçməklə). Levan öz qarşısına bu məqsədi qoydu ki, həmin yollara rəngarənglik daxil etsin və Odişidən keçən yeni ticarət yolu yarada bilsin. Bu dövrdə Odişi Sabit və təhlükəsiz ölkə hesab olunurdu, hansı ki ondan daha aşağı gömrük tarifləri qaydasını yarada bilərdi, nəinki türklər tacirlərə öz ərazilərindən keçərkən malın ötürülməsində onlara ödədirdilər və bunların arzu edənləri öz tərəfinə çəkməyə çalışırdı. Həm də Odişi marşrutu nisbətən daha sürətli tranzit yolu idi və vaxta əhəmiyyətli dərəcədə qənaət etmək imkanı verirdi.

1640-cı illərdə, özünün iqtisadi planın birinci mərhələsini həyata keçirdikdən sonra, Levan Papa emissarlarını Romaya qaytardı və həmdə onlarla çox səmimi məktub göndərdi, harada ki, Papadan acizanə xahiş edirdi ki, Odişiyə ipək və yun parça hazırlayan ustalar göndərsin ki, buradakılara sap əyirmək və parça toxumaq sənətini öyrətsinlər. Levan vəd edirdi ki, bu "sənaye elçilərini" torpaqla, evlərlə və xidmətçilərlə təmin edəcəkdir. Lakin elçilər Romaya çatanadək VIII Urban vəfat etdi, yeni papa X İnokenti (1644-1655) isə Gürcüstan ilə əlaqə yaratmaq marağında deyildi. O dua-ibadətlə məhdudlaşırdı və Levanın Odişinin iqtisadi irəliləyişi ümidi puça çıxdı.

Levan Dadiani **Yerusəlimin** Cvari monastırını borclardan azad etdirə bildi və onun yenidənbərpası üçün zəruri məbləğ də ayırdı, elə o özü Rustavelinin ölməz "Pələng dərisi geymiş pəhləvan" poemasını aşkar etdi, hansı ki, hazırda bu əsərin ən qədim tarixli əl yazması hesab olunur. Levanın xeyirxahlığı ilə daha bir çox başqa mədəni tədbirlər həyata keçirildi. Levanın fəaliyyəti illərində böyük miqdarda epiqrafik abidələr yaradılırdı.

## İtalyan missioneri Arkancelo Lambertinin "Sameqrelonun təsviri" əsərindən parçalar

**İndi Meqrellərin qapı-bacalarını təsvir edək.** Əvvəlcə bunu qeyd edək ki, hər bir meqrelin elə böyük həyəti vardır ki, ən çox tarlaya bənzəyir. Həyətdə yalnız yaxşı ot böyüyür və alaq otları görməzsən. Hər bir evin adamı həyətinin təmizliyi ilə öyünür. Həyətin hər tərəfinə çuxur qazılmışdır və çəpər çəkilmişdir. Hər bir sakin çalışır ki, mümkün olduğu qədər, gözəl çəpər düzəlsin. Bu çəpəri torpağa sancılmış bir-birinin yanında düzülmüş möhkəm payalar əhatə edir. Girişdə böyük ala qapıları qoyurlar ki, bunlar da tirlərlə və böyük ağaclarla bərkidilir; bunların üzərində müxtəlif növlü mal-qaranın və ya başqa nəyinsə heykəlləri düzülür. Lakin bütün bunlar incə işlədilmişdir, eyni zamanda əsərlərə həm də yenə kənd gözəlliyi verir. Kölgəlik yaratmaq üçün həyətdə müxtəlif ağac basdırırlar, ən çox isə cökə ağacı (Carpeno). Bu ağac Kolxidada da elə uca böyüyür ki, bütün başqa ağacları kölgədə qoyur – özünün hündürlüyü və təbiətin özünə də elə bir gözəllik verir ki, aydındır ki, incəsənətə özünün tərəfindən istehsal etməsin: aşağılarda nə qədər ki, budaqları var, bütünlüklə ətrafa yayılır və sonra yavaş-yavaş necə ki, yuxarı qalxır, get-gedə daralır və axırda zirvədə tamamilə xırdalanır və bütünlüklə şam (Pigna) meyvəsinə bənzəyir. Belə ağacları müxtəlif sıralarla basdırırlar: bəzilərini uzununa cərgə ilə düzürlər, ki insan gün ərzində istədiyi zaman kölgə altında gəzişib istirahət etsin; bəzilərini isə bir-birinin yanında, dairəvi şəkildə basdırırlar ki, çoxlu adam birlikdə kölgə altında yerləşə bilsin və istədiyi vaxt çörək yesin və yaxud istirahət etsin. Bax, bu ağacların kölgəsi sayəsində meqrellər bütün yay ərzində tüstülənən ev ətrafında qaçışırlar və hər gün əgər yağış evdə oturmağa məcbur etmirsə, vaxtı bayırda keçirirlər və qaranlıq düşənədək bütün həyətdə olurlar: gəzişirlər, işləri bölüşdürürlər, yeyirlər və hətta yatırlar. Çəpərə alınmış həyətdə evi və müxtəlif zəruri tikililəri bir-birinin yanında elə məsafədə tikirlər ki, əgər hər hansı bir tikiliyə od düşərsə, başqalarını da yandırmasın. Alaqapının qapılarına ki, daxil olsanız, ilk dəfə nəzərinizə ən böyük tikili çatacaqdır, hansı ki, meqrelcə Oxoro (Ochórs) adlanır və hansı ki, qonaqlar qəbul etmək üçün nəzərdə tutulur. Elə ki, ev adamları hər hansı bir naməlum adamın həyətə daxil olduğunu gördülər, o andaca həmin şəxsi qəbul edir və Oxoraya aparırlar. Orada isə qonaq, əgər qışdırsa, bir balaca ocaqda qızınır, dincəlir və onu ev sahibinin yanına aparırlar. Oxorada qışda çörək yeyirlər və bir küncdə ev sahibinin ən yaxşı atı bağlanır, bu səbəbə ki, əgər bir hadisə baş versə, at əlinin altında olsun.

**Meqrellər qonaqlıq zamanı və bayramlarda yenə də** bir cür paltar geyirlər, hansı ki, bu paltar ayaqlarına qədər uzanır və onların ucları torpağa gedib çatır. Bu paltar olduqca qəşəngdir, həm tikişləri ilə, eləcə də zəngin parçası ilə – hansı parçadan ki tikilib. Bu geyimi Dəməşq parçasından, yaxud da məxmərdən və parçadan tikirlər; astar qismində Samur dərisindən istifadə edirlər və yuxarıdan aşağıya qədər qızıl ilə və yaxud mirvari dənələri ilə bəzədilmiş olur. Hər bir tavad-aznaurun bu cür bir neçə müxtəlif parçadan tikilmiş paltarı olur ki, bir yana gedərkən ya birini geyinsin, ya da o birisini. Bu paltar həm kişilər üçün, həm də qadınlar üçün eynidir. Qadınlar bizim ölkəmizdən uzaq olsalar da, ancaq geyinib keçinməkdə bizim qadınlardan heçdə geri qalmırlar.

**Əgər çörək yeyərkən süfrə arxasında əcnəbilər olarsa,** onlara hörmət əlaməti olaraq onların ləyaqətinə və ad – sanına görə hörmət edirlər. Əgər onlar ev sahibləri ilə eyni zümrəyə aid idilərsə, ev sahibi ayağa qalxaraq sərəncamlar verir ki, qonaqlara yaxşı xidmət göstərsinlər və hər şey öz qaydasında olsun. Məclisin əvvəlində ev sahibi öz əli ilə də belə qonaqlara xidmət göstərir, özü qonağa xörək paylayır, əvvəlcə xörək çəkir və yalnız bundan sonra özü çörək yemək üçün oturur.

**Heç bir millət əkinçiliyə meqrellər qədər belə hörmət göstərmir.** Bütün başqa yerlərdə torpaq işləri ilə yalnız alçaq təbəqənin insanları məşğul olurlar və yoxsul kəndlilər. Sameqreloda isə, nə qədər böyük soyadının adamı olsa belə öz tarlasını özü becərir və öz qidasını yetişdirir. Bu iş təhqir hesab olunmur. Əksinə, hər bir önə baxan ailə aznauru bu işə daha həvəslə girişir. O özü əlinə toxa götürür və öz tarlasını becərmək üçün çoxlu tər axıdır. Meqrellərin atalar sözü də vardır ki, yemək hamıya lazımdır, aznaura da və kəndliyə də, və buna görə də hər bir insan öz azuqəsini öz əli ilə yetişdirməlidir ki, bu da onun yaşaması üçün zəruridir. Başçıdan tutmuş axırıncı Meqrelədək hamı kənd təsərrüfatı işlərinə həvəslə qoşulur və öz əkin sahələrini can-başla becərirlər.

**Meqrellərin əsas məşğuliyyətlərindən biri ovçuluqdur** və hər bir zümrəyə və vəziyyətə malik meqrel ona həvəs göstərir. Onların ölkəsinin yerləşməsi də buna imkan verir: insan məskənlərinin ətrafındakı kolluqlarda, təpəliklərdə və düzənliklərdə müxtəlif çöl heyvanları çox olur, hansıları ki, burada yaşayanlar öz gözləri ilə görürlər və aydındır ki, onlarda bu heyvanları tutmaq həvəsi yaranır və buna görə də ovçuluğa meyl edirlər. Onların bu barədə atalar sözü də vardır, harada ki deyilir. Xoşbəxt o insandır ki onun yaxşı atı var, ən qoçaq iti və ən yaxşı ov quşu.

**İndiki ən səmimi qəlbli başçının hər** hansı bir cinayətə görə həmin şəxsi ölüm cəzası ilə cəzalandırmaq arzusu yoxdur, nə qədər ağır cinayət olsa belə. Əgər onun vəzirinin işini hesaba almasaq. Yalnız bir hala görə onun ölümlə cəzalandırmaq qaydası vardır, təkcə kilsədən yayınmağa görə, əgər kilsədən əşyaları oğurlayardırlarsa, yaxud kilsəni yandırardılarsa, yalnız buna görə ölüm cəzası tətbiq olunurdu. Başqa bütün cinayətləri knyaz pul ödəməklə bağışlaya bilirdi, yaxud da kiminsə himayədarlığı ilə onu bağışlayır və mümkün qədər cəzasını yüngülləşdirirdi, kilsəyə münasibətdə cinayət törətmiş şəxs isə heç bir halda əfv olunmurdu və hökmən ölümlə cəzalandırılırdı. Mən orada olanda müxtəlif kilsələrdə saxlanılan bir neçə qızıl və gümüş ikona və müxtəlif qiymətli daşlarla bəzədilmiş əşya və eləcə də başqa qiymətli əşyalar oğurladılar. Çox gözlədilər lakin oğruları uzun müddət tapa bilmədilər, axırda isə, çoxlu axtarışdan və böyük əziyyətlərdən sonra oğruları ələ keçirdilər, başlarını kəsdilər və cinayət törətdikləri yerdə asdılar. Başqa ölkələrdən çox burada yenə də kilsəyə münasibətdə belə hörmət qorunub saxlanılmışdı ki, dinin özünə daha çox xəyanət göstərmiş olarlar nə zaman ki, bu cür cinayətləri cəzasız qoyarlar.

**Bizim Avropada əgər qadınla evlənirlərsə, əsas** əşya kimi cehizin alınmasıdır. Ona görə də tez-tez belə hadisə baş verir ki, nə bədənin eybəcərliyinə, nə onun yaşına və nə də aşağı zümrədən olmasına əhəmiyyət vermirlər, nə zaman ki, o biri tərəfdən yaxşı və bol cehizi olur. Ümumiyyətlə belə fikirləşirlər ki, qızıl və gümüş hər bir əskikliyi ört basdır edir. Buna görə də tez-tez baş verir ki zadəganlar özlərini alçaldırlar, gəncləri eybəcər və dişsiz qocalarla evləndirirlər. Kolxida da belə deyildir, burada qadın ər evinə heç bir cehiz aparmır. Meqrellər qadında fiziki gözəllik, yaxşı nəsil və ən yaxşı ağıl-zəka axtarırlar.

**Meqrellər, necə ki bu dünyanın qalan millətləri müharibələrə adət etmişlər.** O qədər adət etmişlər ki, valideynlər lap kiçik yaşlarından öz övladlarını qoşuna aparırlar və o çətinliklərə öyrəşdirirlər, hansı ki, orada baş verə bilər. Uşaqlar silahı elə gəzdirirlər, qalxanı əllərində elə tuturlar nə nizəni elə atırlar ki, sanki lap uşaqlıqdan döyüşə alışmışlar. Hamısı bu sənətə elə ürəklə yanaşırlar ki, yürüşlər üçün nə lazımdırsa, hər şeyə hazırdırlar: ən yaxşı ad, əgər yürüş zamanı, ən çətin anda belə bu atı əsirgəməzlər; ən yaxşı qidaları da yenə görüş üçün saxlayırlar; hər bir silah elə saxlanılır ki, knyazın birinci əmri verilən kimi yürüşə gedə bilsinlər. Bundan başqa yorğan döşəkdə ki dincəlirlər, nizə-ox, qılınc-qalxan, xəncər və bilərziklər başlarının altında olur ki, lazım gəldikdə döyüşə hazır olsunlar. Odişi də heç kəs özünü yürüşdən yayındıra bilməz- nə qədər yüksək mənsəbə malik soyadına malik olsalar belə, yaxud da xəstəliyə düçar olsalar belə. Knyaz əmr verən kimi, hər bir meqrel sözə cavab qaytarmadan, yürüşə qoşulmağa hazırdır. Knyazın özü də, başqalarına nümunə olmaq üçün, elə can başla öz vəzifəsinə başlayır ki, gəl görəsən. O bəzən müxtəlif səbəblərə görə xəstə olsa belə düşərgəni tərk etməyibdir, əksinə, xəstəliyinə baxmayaraq silahlanaraq döyüşə qoşulmuşdur. Beləliklə Kolxida da hamı böyük əzaba və işgəncəyə dözməli olur. Yorğan döşəkdə dəbdəbə ilə əzizlənmək onlara aid deyildi, buna öyrəşməmişlər; hamısı quru yerdə və xalça üzərində dincəlməyə adət etmişlər. Balaca uşaqlar və yeniyetmə gənclər sərt qış zamanı belə ayaqlarına ayaqqabı geymirlər və elə bu halda qarda ayaqyalın gəzməyə öyrənirlər. Dəhşətli istilərdə belə ova gedirlər. Böyük çaylardan tez-tez çılpaq keçirlər. Bütün bunları onlar ona görə edirlər ki, cəld və mərd olsunlar və hər çətinliyə dözməyi bacarsınlar, hansı ki, adi müharibələr zamanı üzləşməli olurlar. Əgər knyaz müharibə başlamaq istəyirsə, ona nə baraban çaldırmaq nə lazım gəlir ordunu yığmaq üçün və nə də pul və ya ərzaq yığmaq-qoşunu saxlamaq üçün. Təkcə bu kifayətdir ki, lazım gəldiyi zamanda bir neçə kuryer göndərilirdi knyazlığın bütün guşələrinə əllərində zadəganlar üçün məktublar ilə. Onlar məktubları aznaurlara və vəzifə sahiblərinə çatdırırdılar

və xəbər verirdilər ki, onlar neçə vaxt ərzində özünün bütün adamları ilə, silahları və azuqələri ilə birlikdə özlərini yetirsinlər, bu və ya digər yerdə olsunlar, harada ki, qoşun toplaşacaqdır. Bununla yanaşı onu da xəbər verməli idilər ki, özləri ilə neçə günlük azuqə götürməli idilər. Bu xəbəri aldıqları gündən təyin olunmuş vaxta qədər hamı öz azuqəsini hazırlayır, öz silahını nəzərdən keçirir və atlarını yəhərləyir, döyüş vəziyyətinə gətirir, öz adamlarını yoxlayır və təyin olunmuş vaxta görüş yerinə getmələrini təmin edirdilər. Kolxida o dərəcədə az məşhurdur ki, ola bilsin heç kəs inanmayacaqdır, əgər desək ki, nə güclü və çox saylı qoşun çıxara bilir knyaz döyüş üçün: çox qısa bir müddətdə 30 min nəfərdən ibarət qoşun toplaya bilir, lakin aznaurlar daha çox öz arzuları ilə, qanundan daha çox tamamilə birgə çıxırlar, belə ki əgər aznaurun beş və ya altı oğlu vardırsa, onlar hamısı başçının yanına gedirlər vuruşmaq üçün, əgər yetkinlik yaşına çatmışlarsa, əgər at belində otura bilirlərsə. Əgər daha çox əziyyət vardırsa və daha çox qoşun lazım gəlirsə, o zaman əmr gəlir ki, hər ocaq başına iki və üç nəfər adam qoşun sırasına gəlsin. Bəzən belə əmrdə gəlir ki, evdə yalnız onu müdafiə etmək üçün bir nəfər qalsın və qalanlar, hər kəs bacarırsa əldə silah tutmağı bacarırsa, döyüş meydanına çıxsın.

**Sameqreloda vaxt keçirmək üçün bir çox müxtəlif oyunlar vardır**. Onlar arasında bəziləri bütün dünyaya da yayılmışdır və bəzisi məhz Sameqreloda və Gürcüstanda yayılmışdır və başqa heç yerdə bunu görməzsən. Birincilərə aiddir: şahmat, nərdtaxta və qumar. Şahmatla və nərdtaxta oyunu ilə ən çox qadınlar keçirirlər öz vaxtlarını, nəinki kişilər və elə mərd və ustalıqla oynayırlar ki, çox cəlbedici tamaşa olur. Qumar nadir hallarda olur və onunu ən yüksək zümrəyə xas olan tavadlar oynayırlar. Şəxsən o yerlərin oyunları isə iki cürdür: topla oynamaq və nişanəyə nizə oxla nişan atmaq. **Meqrellər qarşılıqlı münasibətlərdə elə incəliklə hərəkət edirlər ki,** bu cəhətcə onlara barbarlarla da müqayisə oluna bilməz, əksinə onların hərəkət-davranışlarını qapıda duran adamlarla müqayisə etmək olar. Lakin meqrellər özlərinin bütün hərəkətlərində nəzakətlik göstərirlər. Meqrellər daha çox tez-tez əzilib-büzülməkdən istifadə edirlər ki, bunu da ən xeyirxah adət hesab edirlər. Çox hallarda nəzakət göstərirlər və xüsusən o zaman, nə zaman ki uzun müddət bir-birilərini görməmişlər və sonra bir-birilərinə rast gəlirlər. Bu halda atdan atılıb düşürlər və bir-birilərini əzilib büzülməklə salamlayırlar. Eləcə də bir-biri ilə salamlaşır və bir-birinə dua oxumaqla rahatca bir-birlərindən ayırırlar, hər kəs uzun müddətə səyahətə çıxdıqdan sonra vətənə qayıdırsa və ona da, hər kəs ki uzun müddətli xəstəlikdən sonra yorğan döşəkdən qalxırsa və bayıra çıxırsa: hamı, hər kəs ki, onun qarşısına çıxır, onu əzilib büzülməklə salamlayır və deyir: Allaha şükür ki yaxşı və səni gümrah görürəm. Əgər kimsə vəfat edirsə və onun yaxın qohumu yas qiyafəsində bayıra çıxarsa, bu qohuma bu cür baş sağlığı verirlər: əvvəlcə dizə çökürlər və sonra sağ əlləri ilə papaqlarını götürürlər və sol əlləri ilə dörd və ya beş dəfə sinələrinə vururlar, onların kədərini anlamaq və bölüşmək əlaməti kimi.

**Əgər çörək yeyilən zaman darvazanın qarşısından hər kəsə yad adam keçərsə, meqrellərin nəzakəti tələb edir ki,** elə o dəqiqəcə adama çatsınlar və onu süfrəyə dəvət etsinlər. Buna görədir ki, darvaza qapısı çörək yeyilən zaman heç vaxt bağlanılmır və bir çox hallarda çörək yemək üçün yol kənarında əyləşirlər: nə zaman ki, kimsə yad adam gəlib keçirsə, hökmən süfrəyə dəvət edirlər. Burası da maraqlıdır ki, ötüb keçənin heç bir rədd cavabı qəbul olunmur. Dəvət olunan şəxs süfrə arxasına oturduqdan sonra, ev sahibi onu bununla qonaqlayır ki, süfrədə hər nə varsa. Ev sahibi yeməyə başlamağı təklif edən zaman, qonaq ona başını əyərək minnətdarlığını bildirir və sağ əlini başına qoyur, – bununla o bunu demək istəyir ki, bütün bu mənim başıma savabdır. Süfrə üstünə gəlib çıxmış şəxs və yaxud qonaq nə qədər hörmətcil olsa belə, ev sahibi özünü borclu bilmir ki, özlərininkilərə yeni xörək gətirməyi əmr etsin və tamamilə kifayət hesab edir ki, qonağa süfrədə hər nə vardırsa onu təklif etsin. Qonaq tamamilə bu xörəklərlə kifayətlənir, nə qədər az olsa da, çünki onu süfrənin müxtəlif xörəklərlə bolluğu və ya başqa əlamətləri deyil, yalnız dəvət olunmağı və nəzakətliliyi maraqlandırır.

**Səpin üçün isə bütün ölkə yarayır,** lakin həddindən artıq rütubətliliyə görə, hansı ki, toxumu çürüdür, torpaq o qədər məhsul vermir, başqa yerdə isə bu cür torpaq daha çox məhsul verir. Torpağın böyük hissəsi knyazın sərəncamı ilə becərilmir, çünki o arzu edir ki, daha çox torpaq sahəsi marallar

və çöl donuzları üçün ovlamağa yararlı olsun. Meqrellər böyük canfəşanlıqla ğomi (bizimkilərdə paniko və ondan hazırlanan adi xörək) yetişdirirlər və bunun üçün Sameqrelo da, necə ki, bizdə də hər yerdə bu bitkinin böyük tığınlarına uca ağacların altında rast gələrsiniz ki, ağacların kölgəsi ğomiyə zərər yetirməsin. Ağacların budaqlarını bir başa bir-birinə bağlayırlar və bunu elə edirlər ki, ağacın yalnız gövdəsini qoyurlar, hansına ki, tənək güclə qalxır. Kəsilmiş budaqlarla səpilmiş sahələrə çəpər düzəldirlər ki, onları tarlalara buraxılmış mal qaradan qorusunlar. Ağacların budaqlarını kəsdikdən sonra torpağı şumlamağa başlayırlar və torpağı dörd dəfə və yaxud beş dəfə həmin ölçülü kotanla şumlayırlar, bizimkinə bənzər kotanla, lakin onların kotanın yalnız ucunda lap balaca dəmir olur, dörd barmaq uzunluğunda və bu xışın qalan hissəsi bütünlüklə ağacdan olur. Onların ağıllı düşüncələrinə görə, dəmirdən kotan hazırlamaq artıq xərcdir, çünki öküzlərin yükünü ağırlaşdırır və bu kiçik dəmir lövhə ilə də asan yola gedirlər. Torpağı əkinə hazırladıqdan sonra, səpinə başlayırlar, belə ki, həmin işi Petre Pavlov gününədək demək olar ki, əkin səpin işlərini başa çatdırırlar. Lakin bundan sonra daha böyük zəhmət tələb edən mövsüm başlanır: rütubətliliyə görə burada alaq otları sürətlə bitir və onları məhv etmək üçün böyük zəhmət tələb olunur. Əgər bir neçə gün otun böyüməsinin qarşısı alınmasa, alaq otları o qədər çoxalır ki, əkin sahəsini tamamilə bürüyür. Ona görə də ğomi torpaqdan baş qaldıran kimi həmin andaca toxalamaq lazım gəlir, çünki bu iş tezliklə görülməlidir və torpağın sahibi öz adamları ilə bu işin öhdəsindən gələ bilmir, qonşuları köməyə çağırır. Hər kəs ki artıq zəmiyə toxum səpmişdir və onu kətmənləməyə başlamalıdır, buna qədər o şəxslərə köməyə gedir, hansıların ki, sahəsinin kətmənlənməsi vaxtı hələ gəlib çatmamışdır, onları köməyə çağırır. Öz vaxtında başqaları onlara kömək göstərdiklərindən, bunlar da həmin şəxslərə köməyə gedirlər. Bir halda ki, bu əziyyətli iş dəhşətli istilik zamanı icra olunur, insanlar onları asanlaşdırmaq üçün elə bir üsul düşünüb tapmışlar ki, adama elə gəlir ki, bütün kənd kef çəkir. **Bu üsulu üç şey təşkil edir: ziyafət, mahnı və bol yemək içmək,** bu süfrəni malikanənin sahibi açır. Bir çox hallarda bu məclis əlli nəfərdən ibarət olur və bəzi hallarda isə 60 nəfər kətmənlə silahlanmış insanlardan. Bu zaman əhval ruhiyyəni yüksəltmək üçün, sahə sahibi də əlində kətmən onların cərgəsinə qarışır və torpağı toxalayaraq başqaları kimi o da mahnı oxumağa başlayır və toxa vurur. Bütün ziyafətin qoşulduğu mahnı onların ahənglə işləməsinə təkan verir və şən əhval ruhiyyəli qrup elə həvəslə işləyir ki, sürətdə onlara heç kəs çata bilmir. Bunun üçün onların xüsusi mahnıları vardır və bu mahnını kətmən vuran zaman elə ahənglə oxuyurlar ki, necə ki, oyun havası çalınanda rəqs olunan kimi: mahnının sürətini nə qədər artırırlarsa, kətməni də o sürətlə artırırlar. Bunun üçün iki nəfər müğənni seçilir və onlar oxumağa başlayırlar. Bu başçılara payı birə iki dəfə artıqlaması ilə ona görə verirlər ki, kətmənlənməni sürətləndirsin. Yeməkləri kifayət qədər bol olur, çünki onların əməyinin yeganə qiyməti budur. Gün ərzində işçilərə 3 dəfə tarlada yemək verirlər. Qaranlıq düşdükdən sonra isə sahibin evində şam yeməyi hazırlayırlar, bu süfrə də həddindən artıq bol olur. Bu zaman hər birinin iş barədə dərd-səri unudulmuş olur, gecə yarıyadək otururlar və vaxtı yemək-içməkdə və mahnı oxumaqda keçirirlər. Elə ki, Günəş batanadək kətmənlənməni başa çatdırırlar və sahibin evinə gedirlər, bu olduqca gözəl tamaşadır, sanki bir bayraq altında əsgərlər döyüşə gedirlər, toxaları çiyinlərinə alırlar və beş və ya altı cərgə ilə, yavaş-yavaş gedirlər, həm də mahnı oxuyurlar və böyük hay-harayla sahibin həyətinə daxil olurlar. Buraya daxil olan kimi süfrə arxasında əyləşirlər və elə o andaca onlara yemək gətirirlər.

# FƏSIL 4. SVANETI

| Dərsin mövzusu | **4.4. Svanetidə təbii fəlakətlər** |
|---|---|
| **Dərsin məqsədi** | Şagirdlər Svanetidə cərəyan edən təbii fəlakətlərlə tanış olur, onların yaranma səbəblərini təhlil edir və özünü müdafiə tədbirləri barədə mülahizə yürüdür |
| **MTP uyğunlaşma** | (II) 3 (II) 6 (II) 5 (II) 7 (II) 12 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Müəllim sual verir, hansı təbii fəlakətləri tanıyırsınız. Cavablar yazı taxtasında yazılır. (5 dəq)<br>**Fəallıq 2.** Mətndə mövcud olan məlumat ilə tanış olsunlar və insanın təbiətə pis münasibəti haqda olan cümlələri axtarıb tapsınlar. (15 dəq)<br>**Fəallıq 3.** Qruplar halında mülahizə yürütsünlər və şifahi təqdimat şəkilində aşağıdakı sualı təqdim etsinlər: hər bir vətəndaş və dövlət nə etməlidir ki, təbii fəlakətlərin səbəb olduqları problemləri aradan qaldıra bilsinlər. (15 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə (5 dəq)<br>**Fəallıq 5.** Ev tapşırığı – ekomiqrantlar barədə məlumat toplasınlar və sinif qarşısında təqdim etsinlər. |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, qruplar |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir |
| **Qiymətləndirmə** | Cari tapşırığın qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Təbii fəlakətlər və onlarla mübarizə vasitələri |

Dərsin əvvəlində şagirdlər onlar üçün tanış olan təbii fəlakətləri sadalasınlar : daşqınlar, zəlzələ, torpaq sürüşməsi, qar uçqunu, yanğın, quraqlıq və s.

Mətndən cümlələr, hansılar ki, insanın təbiətə pis münasibətinə işarə edir: onlar ən-ənənələri unutdular, bilik, hansıları ki, öz əcdadlarından almışdılar, evi orada tikdilər, harada ki, torpaq sürüşməsi və qar uçqunu təhlükəsi vardır, ağacı o yerdə kəsdilər, harada ki, onu kəsmək olmazdı.

Üçüncü aktivlik üçün T diaqramından istifadə etmək, harada ki, yazırlar, bir cəhətdən, vətəndaşa nə həvalə olunur, ikinci cəhətdən isə – dövlətə nə həvalə olunur. Bunun üçün ki, təbii fəlakətlərin səbəb olduqları problemləri aradan qaldıra biləк.

Elektron resurslardan istifadə etməklə ekomiqrantlar barədə məlumat toplasınlar.

| Dərsin mövzusu | **4.7. Svaneti – Gürcüstanın xəzinə xəlvətxanası** |
|---|---|
| **Dərsin məqsədi** | Şagird Svanetinin mədəni irs abidələri ilə tanış olur, onların əhəmiyyətini təhlil edir və onlara münasibətdə qayğı göstərmək zərurəti barədə mülahizə yürüdür. |
| **MTP uyğunlaşma** | (II) 3 (II) 7 (II) 12 (II) 14 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Şagirdləri Ciqsou metodu ilə dərsin mətnində verilmiş məlumat üzərində işlədirlər (20 dəq)<br>**Fəallıq 2.** Təqdimat (15 dəq)<br>**Fəallıq 3.** Cədvəl: bilirdim, başa düşdüm, bilmək istəyirəm. (5 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə (5 dəq)<br>**Fəallıq 5.** Ev tapşırığı – Svanetinin etnoqrafik muzeyində mühafizə olunan eksponatlar barədə məlumat toplasınlar (bax, resursların sadalanması). |
| **Qiymətləndirmə** | Təqdimatın qiymətləndirilməsi rubrikası |
| **Resurslar** | Dərslik, ağ vərəq, markerlər |
| **Sinfin idarəedilməsi** | Təqdimatın qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Svanetinin təbii şəraitləri və coğrafi obyektləri barədə məlumat,, yerdəyişmə vasitələri barədə məlumat |

Dərsdə Svanetinin mədəni irsi barədə geniş material verilmişdir. Buna görə də yaxşı olar ki, müəllim mətni şagirdlərə Ciqsou metodundan istifadə etməklə işlətsin (bax, Ciqsou metodu). Bundan sonra fərdi şəkildə cədvəli doldursunlar :bilirdim, başa düşdüm, bilmək istəyirəm.

| Bilirdim | Başa düşdüm | Bilmək istəyirəm |
|---|---|---|
| | | |
| | | |
| | | |

## Əlavə məlumat

**Rubrika – bu maraqlıdır**

**Adişinin dördbaşı – qədim** gürcü dili və yazısının əhəmiyyətli abidəsi, tarixli dördbaşlılar arasında qədim (897-ci il ilə tarixlənir) nüsxə Klarcetidə Şatberdi lavrasında köçürülmüşdür.

Svanetinin tarixi və etnoqrafik muzeyinə (1936-cı ildə yaradılmışdır), Adişinin dördbaşını 1947-ci ildə aparmışlar. Adişi dördbaşının əhəmiyyətini ona əlavə edilmiş iki vəsiyyət artırır. Birincisi onun üzünü köçürənə – Mixailə aiddir, ikinci sifarişçiyə – Soproma, hansı ki, Şatberdi monastırının öndəri imiş. Əl yazmasında mövcud olan gec yazılardan biri belə məlumat verir ki, dördbaş bir neçə başqa əl yazması ilə birlikdə Tao-Klarcetidən Cumatinin kəndxudası Nikolos gətirmişdir. Əl yazmasının Svanetiyə nə vaxt və necə düşdüyü barədə heç kəs dəqiq bir şey bilmir, lakin kitabın kənarlarında edilmiş qeydlərdən görünür ki, o XVI əsrdə artıq Svanetiyə çıxarılmış və çox gözəl Adişi kəndində yerləşdirilmişdir. Elmi nəticə sayəsində təsdiq olunmuşdur ki, Adişi dördbaşı yunan orijinalından köçürülmüşdür, hansı ki, qorunub saxlanılmamışdır.

**Svanetiyə duz –** film 1930-cu ildə rejissor Mixeil Kaladozişvili tərəfindən çəkilmişdir. Svanetidə yaşamağın ağırlığı filmdə tam çılpaqlığı ilə göstərilmişdir. Sərt və dözülməz şəraitlər, harada ki, bunlara duzun olmaması və qıtlığı əlavə olunur. Əhali duz əldə etmək üçün arana gedir, lakin yolun olmaması üzündən onlardan bir çoxu məhv olur. Film nikbin ruhda başa çatdırılmalı idi. Zamanın tələbatı belə idi. Ona görə də filmdə qayalıqların necə dağıdıldığı, dağların necə partladıldığı kadrlarda öz əksini tapmışdır. Sovet Hakimiyyəti yol çəkir, hansı ki, real şəkildə çox bundan gec həyata keçirildi. Film ekranlarda yalnız 4 gün göstərilirdi. Onun göstərilməsini qadağan etdilər. Əcnəbi kinematoqrafçılar isə bu filmə yüksək qiymət verdilər və Luis Muniuelinin "Çörəksiz Torpaq" filmi ilə müqayisə edirdilər.

Tetnuldi kurortunun tikilməsinə 2014-cü ilin may ayında başlanmış və 2016-cı ilin yanvarında başa çatdırılmışdır. Kurort dəniz səviyyəsindən 2200 metrdə, Mestiyadan 15 kilometr uzaqlıqda yerləşir. Mütəxəssislərin gəldikləri nəticəyə görə, "Tetnuldi" kurortu eyni bir vaxtda 6806 insanı qəbul edə bilər, xizək kompleksi isə eyni vaxtda 4100 xizəkçiyə xidmət göstərə bilər. Nadir kurort turistləri bütün dörd mövsüm ərzində qəbul edə bilir. Xizək mövsümü isə 6-7 ayadək uzadılacaqdır. Tetnuldi kurortunda yalnız yerli əhali işlə təmin olunacaqdır.

**Təxirəsalınmaz yardımın idarə olunması mərkəzi 112-nin** əsas məqsədi həm insanların, eləcə də fərdi və ictimai mülkiyyətini qorumaqdan ibarətdir. Məlumatı bütün Gürcüstandan 24 saat müddətində almaq mümkündür. Zəng pulsuzdur və hətta o zaman da zəng vurmaq olar əgər qeyd edilmiş və ya mobil telefon ikitərəfli söndürülmüşdür və yaxud mobil telefonda sim barat qoyulmamışdır.

**112-ni yığmamılısınız:** yalan həyəcan doğurmaq məqsədi ilə, əylənmək məqsədi ilə, şəxsin telefonunu öyrənmək məqsədi ilə, taksi çağırmaq məqsədi ilə, hava proqnozunu bilmək üçün və başqa buna bənzər hallar zamanı.

**Mestiya aeroportunun tikintisi** 2010-cu ildə başa çatdırıldı. O həmçinin Mestiyanın Çar Tamara adına aeroportu kimi tanınır. Onun uçuş – eniş zolağı vardır. Qış dövründə aeroport bir motorlu təyyarələr və kiçik – 18 insanın sığışa bildiyi sərnişin təyyarələrini qəbul edə bilir. Mestiya aeroportu dünyanın 10 qeyri-adi aeroportları siyahısına düşmüşdür və ona "Kiçik gürcü möcüzəsi adı verilmişdir.

**Kartofun vətəni** Cənubi və mərkəzi Amerikadır. Bu gün həmin bitki dünyanın demək olar ki, bütün ölkələrində yayılmışdır. Gürcüstanda, harada ki, əhali onu XIX əsrin ikinci yarısından becərməyə başlamışdır, əkinlərin əhəmiyyətli hissəsi dəniz səviyyəsindən 1000-2500 metr yüksəklikdə yerləşir.

Kartof ətraf mühit şəraitlərinə münasibətdə yaxşı uyğunlaşma ilə seçilir. Hazırda dünyada kartofun 4 minədək sortu məlumdur.

Avropalıların süfrəsində Peruluların “Torpaq alması” (kartofu belə adlandırırlar) müəyyən qarşıdurmalardan sonra düşə bildi. Fransız aqronomu Antuan Parmantye kral sarayına çiçəklənmiş kartof buketi ilə daxil oldu və qeyri-adi çiçəklərlə zəngin qadınları həmin çiçəklərlə əyləndirdi. Parmentye kartofun faydalı xüsusiyyətləri barədə yaxşı bilirdi, lakin əvvəlcə əhalidə bu bitkiyə münasibətdə necə maraq oyatmaq barədə bir şey düşünə bilmədi. Ona görə də kral sarayının aqronomu şeytan üsuluna əl atdı. O əmr verdi ki, dövlət torpaqlarında bütünlüklə kartof əksinlər, sahənin ətrafina isə silahlı mühafizə qoysunlar. Halbuki, bu mühafizə yalnız şərti idi. bütün gün ərzində kartof əkinlərinə keşiş çəkirdilər, gecə isə yatmağa gedirdilər. Kəndlilər mühafizəçilərin “gündəlik rejimini” yaxşı öyrəndilər və səpilmiş kartofu bütünlüklə oğurladılar – eşib tökdülər və öz torpaq sahələrinə apardılar. Elə həmin il bol məhsul götürdülər və həmin vaxtdan etibarən kartof onların əkin sahələrində əsas bitkilərdən biri oldu.

**Svanetinin planlı mühafizə olunan** ərazisinin böyük hissəsi qarışıq və iynəyarpaqlı meşələrlə əhatə olunmuşdur ki, burada bir neçə relikt və endemik növ bitki böyüyür. Fauna da rəngarəngdir. Burada məskunlaşmışlar: köpkər, ayı, dağ keçisi, Qafqaz öküzü, dağ qartalı, kərkəs və s.

# FƏSIL 5. ACARISTAN

| Dərsin mövzusu | 5.2. Acar həyətyanı sahəsi və məskunlaşma tipləri |
|---|---|
| Dərsin məqsədi | Şagird acar həyət-bacasının xüsusiyyətləri ilə tanış olur.<br>Şagird məskunlaşmanın bu və ya digər tipinin formalaşdırırlması səbəbini təhlil edir.<br>Şagird məskunlaşmanın tiplərini müxtəlif region ilə müqayisə edir. |
| MTP üzrə nail olunacaq nəticələr | (II) 3 (II) 5 (II) 7 (II) 11 |
| Dərsin gedişatı | **Fəallıq 1. Şagirdlər məskunlaşma tiplərinə hansl faktorların təsir etdiyini yada salsınlar.** (5 dəq)<br>**Fəallıq 2.** Dərsliyin mətni ilə tanış olsunlar və acar həyət-bacasını təsvir etsinlər. Qərbi Gürcüstanın diyarlarının evləri ilə oxşarlıqlar – fərqlər tapsınlar. (20 dəq)<br>**Fəallıq 3.** Acarıstanın, torpaq sürüşməsi təhlükəli region barədə mini mühazirə. Müəllim torpaq sürüşməsinə səbəb olan amillər və ekomiqrantlar barədə məlumat verir. (10 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə (5 dəq)<br>**Fəallıq 5.** Ev tapşırığı – Acarıstanın tikinti ənənələri barədə məlumat toplasınlar. |
| Sinfin idarəedilməsi | Ümumi sinif, fərdi |
| Resurslar | Dərslik, yazı taxtası, tabaşir, xəritə |
| Qiymətləndirmə | Cari tapşırıqların qiymətləndirilməsi meyarları |
| Əvvəl qazanılmış bilik | Təbii mühit və coğrafi xüsusiyyətlər, yaşayış evlərinin tipləri |

Fəallıq 1 – məskunlaşma tiplərinə hansı faktorların təsir göstərdiyini sadalasınlar (təbii şəraitlər, iqlim, resurslar). Acar həyət-bacası ilə tanışlıq vasitəsi ilə onu imeretililərin və yaxud meqrellərin yaşayış evləri ilə müqayisə olunmasını bacarsınlar. (inşaat materiyalı, tipləri).

Müəllim mini mühazirə şəkilində bunun barəsində şagirdlərə məlumat versin ki, Acarıstan torpaq sürüşmələri təhlükəsinə məruz qalan regionlardan biridir ki, bu da ekomiqrantların mövcudluğuna səbəb olmuşdur, buna görə də dövlət onları Gürcüstanın müxtəlif regionlarında yerləşdirmişdir.

**Müəllim üçün əlavə informasiya**

1981-1988-ci illərdə Acarıstandan gəlmiş əhalini əksərən Aspindza və Adıgen rayonlarında yerləşdirdilər. Bu regionlar iki səbəbə görə cəlbedici idi. Miqrasiya olunmuş əhali üçün. Birinci növbədə, ona görə ki, onlar dağlıq Acarıstana yaxındır. İkinci cəhətdən, ona görə ki, bu rayonlarda əhalinin yerləşdirilməsi ənənəsi artıq mövcud idi. 1940-cı illərdən başlayaraq, nə zaman ki mesxlər zorla Orta Asiyaya deportasiya edildilər və onların əvəzinə Gürcüstanın başqa hissələrindən buraya camaatı yerləşdirdilər. Bu fakt ki, Samsxenin gürcü əhalisinin əksəriyyəti regionda yenicə yerləşdirilmişdi, bir çox miqrantın fikrincə, yeni yerləşdirilənlər üçün bu regionu daha qonaqpərvər edir. Gürcüstan parlamentinə təqdim olunmuş xalq müdafiəçisinin hesabatı.

| Dərsin mövzusu | 5.3. Acarların qonaqpərvərliyi |
|---|---|
| Dərsin məqsədi | Şagird acarların ənənələri ilə tanış olur.<br>Şagird ənənələrin əhəmiyyətini təhlil edir.<br>Şagird ənənələrin qorunub saxlanılmasının məqsədəuyğunluğu barədə mülahizə yürüdür. |
| MTP nəticələri | (II) 1 (II) 3 (II) 6 (II) 7 (II) 13 (II) 14 |
| Dərsin gedişatı | **Fəallıq 1.** Müəllim dərsə alimin sözləri ilə başlayır: “Acar, əgər belə demək mümkünsə qonağa hörmət göstərməyi özünə böyük borc bilir. Qonağı Allah qonağı hesab edir” və şagirdlərdən xahiş edir ki, qeyd olunan iqtibas barədə öz mülahizələrini söyləsinlər. Əgər bacarırlarsa, öz təcrübələrindən və yaxud başqalarının söylədiklərindən misallar gətirsinlər. (10 dəq)<br>**Fəallıq 2.** Şagirdlər acarların qonaqpərvərliyi barədə mətnlə tanış olur və mülahizə yürüdürlər, alınmış məlumat alimin dediklərinə necə uyğun gəlir və o cümlələrin altından xətt çəksinlər, harada ki, qarşılıqlı kömək ənənəsinin mövcud olduğu nəzərə çarpır. (5 dəq)<br>**Fəallıq 3.** Bu faktorları sadalasınlar, hansılar ki, Acarıstanda turizmin inkişafına kömək göstərir. (5 dəq)<br>**Fəallıq 4.** Mülahizə yürütsünlər, tolerant ictimaiyyət turizmin inkişaf miqyaslarının müəyyənləşdirilməsinə necə təsir göstərə bilər. (5 dəq)<br>**Fəallıq 5.** Şifahi təqdimat hazırlasınlar, Acarıstanda harada dincəlirdilər və onların bu seçimi etməyini nə şərtləndirdi. (10 dəq)<br>**Fəallıq 6.** Qiymətləndirmə<br>**Fəallıq 7.** Ev tapşırığı-Acarıstanda yaşayan həmyaşıdlarına məktub yazsınlar, burada Acarıstana getməyin əsaslandırılmış istəyi öz əksini tapmalıdır. |

Müəllim üçün əlavə məlumat, Acarların qonaqpərvərliyi və turizmin inkişafı üzrə söhbətlər aparmaqda yardım edəcəkdir.

Çakvidə yaşayan tarixçi İ. Qorqiladze ilə müsahibə:

Turizm əhalinin yeni dalğasına səbəb olmuşdur. Buraya çoxlu müxtəlif millətlərin, müxtəlif dinlərin insanları gəlir. Bir qismi daşınan əmlak alır və məskunlaşır, bir hissəsi mövsüm zamanı qonaq olur, bir qismi həmişəlik qalır. Çakvi əhalisinin qarmaqarışıq tərkibi azalmamışdır, əksinə, daha da “ala-bula” olmuşdur. Türklər, ərəblər əlavə olunmuşlar. Çinlilər burada əvvəllər də yaşayırdılar.

Mehribanlıqla birgə yaşamaq öz-özlüyündə turizmin inkişafına kömək göstərir, beləliklə, əhalinin iqtisadi güclənməsinə zəmin yaradır. Bu iki faktor bir-biri ilə zəncir kimi bağlıdır və birinin itirilməsi, ikincisinin məhv olmasına səbəb olur.

## Əlavə məlumat

**Rubrika – bu maraqlıdır**

**Mtirala Milli Parkı** Avropada ən bol rütubətli yerdə yerləşir. Parkda unikal qabıqlı bitkilər meşəsi qorunub saxlanılmışdır. Yaraşıqlı epigeya, yalnız burada böyüyür, eləcə də Şkerianiyə başqa heç yerdə rast gəlinmir. Mtirala milli parkının faunası kifayət qədər zəngindir, həm məməlilərlə və quşlarla, eləcə də amfibiyalarla, hansıların ki, arasında Qafqaz salamandrası və kiçik Asiya sakini olan triton xüsusi qeyd edilməlidir.

**Kintirişi mühafizə olunan əraziləri** Kobuleti rayonunda yerləşir və Kintirişi qoruğu və enli yarpaqlı meşələrlə örtülmüşdür, harada ki, nadir reliktik bitkilər seçilir, onlar arasında 600-700 yaşı olan Qaraçöhrə ağacları vardır. Qoruq Kintirişi çayı ilə yarıya ayrılır və vahid bir meşə massivi təsirini bağışlayır. Çayın məcraları bəzi-bəzi yerlərdə kiçik şəlalələr yaradır. Qoruğun aşağı sərhədi dəniz səviyyəsindən 250-300 metrdə yerləşir. Yuxarı hissəsi isə Alp çəmənlikləri ilə həmsərhəddir. Başqa heyvanlar arasında, Kintirişi parkında susamuru da məskunlaşmışdır, bu heyvanın sevimli qidası dağ qızıl balığıdır.

**Batumi Botanika bağı** – 1912-ci ildə Andrey Krasov tərəfindən yaradılmışdır. Bağın dünyada analoqu tapıla bilməz, çünki burada bir-birinin yanında dünyanın 5 qitəsinin bitkiləri böyüyüb boy atır. Bu cür birgə yaşayış bağın ayrı-ayrı hissələrində torpağın və iqlimin özünəməxsusluqlarına imkan yaradır. Bağda, harada ki, 3 dendropark vardır, Kolxida meşəsi qoruğu və landşaft-coğrafi prinsipi üzrə salınmış 9 şöbə vardır, 2000-dən çox növ bitki böyüyür. Batumi botanika bağında ilin istənilən vaxtında çiçək açan bitkilər görərsiniz. Burada yalnız qışda çiçək açan 40 bitki növü vardır.

**Batuminin əsas görməli yerlərindən biri olan – delfinarium** 1974-cü ildə açılmışdır və o zaman dünyanın böyük delfinariumları sırasında idi. 1991-ci ildə delfinarium işini dayandırdı və yalnız 20 illik fasilədən sonra onu bərpa etmək mümkün oldu. Bu gün o dünya standartlarına əsasən təchiz edilmişdir. Dəniz heyvanları üçün ayrılmış əsas, köməkçi və eləcə də təminat hovuzlarında su hər 2 saatda bir dəfə süzgəcdən keçirilir.

